37_27 IYUl-QARA.qxd 10/2/2025 10:34 PM Page 1

UNİKAL

№37 (2267) 3 oktyabr 2025-ci il
Qiyməti 50 qəpik
Qurucusu: Asəf Rzayev
www.unikal.az



# İlham Əliyevlə Paşinyanın növbəti görüşü: Sülhün daha da möhkəmləndirilməsi bir daha təsdiq edildi



Səh.2

## Özəl klinikalardan Teymur Musayevə "güc nümayişi"

*Bu günlərdə məlum oldu ki, "Atlas Medical Center"də Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi tərəfindən plandankənar yoxlama aparılıb. "Qaynarinfo" yazıb ki, vətəndaşın şikayəti əsasında Şah İsmayıl Xətai prospekti, 37B ünvanında yerləşən "Atlas Medikal" tibb mərkəzində yoxlama həyata keçirilib. Belə ki, F.S. adlı şəxs "Atlas Medikal" tibb mərkəzində uroloq-androloq vəzifəsində çalışmış Soltanova soyadlı həkimə müraciət edib. Xəstə iddia edib ki, həmin həkimin yazdığı dərman müalicəsi ona mənfi təsir göstərib. Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi tərəfindən sözügedən şikayət əsasında "Atlas Medical Center"də aparılan yoxlama zamanı pozuntular aşkarlanıb.*

Səh.5

## "İnsanların rahatlığının yaradılmasına ehtiyac var"



*Milli Məclisin deputatı Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, icbari tibbi sığorta ilə özəl xəstəxanalarda əməliyyat olunan şəxslərin bir neçə gün qalması üçün xərclərin ödənilməsindən, TƏBİB-in elektron sisteminin tez-tez çökməsindən, TƏBİB və Səhiyyə Nazirliyinin birləşdirilməsinin nə zaman...*

Səh.4

## Ermənistan parlamenti Azərbaycanla bağlı bəyanat qəbul etdi



*Ermənistan parlamenti "Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olması haqqında" bəyanatın layihəsini qəbul edib. "Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, layihə 64 lehinə, 2 bitərəf və 0 əleyhinə səslə qəbul olunub. Müxalifət bu müzakirəyə və səsverməyə qatılmayıb.*

Səh.14

## Sabiq komitə sədrinin kürəkəni ilə bağlı sensasiyalı iddialar



*Baş nazirin keçmiş müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sabiq sədri, hazırda Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun Müşahidə Şurasının sədri olan Əli Həsənovun kürəkəni Elman Allahverdiyevlə bağlı ilginc iddialar irəli sürülüb.*

Səh.8

37_27 IYUl-QARA.qxd 10/2/2025 10:42 PM Page 2



# Qızından Gülaya qadağa



***"İnsan həyata bir dəfə gəlir. Çalışırıq, yoruluruq. İstirahət də lazımdır. Bu qazanc nə üçündür? Qazanırsan ki, övladınla gəzəsən".***

Bu sözləri müğənni Gülay Zeynallı "Qonaqcanlı" verilişində deyib. Sənətçi istirahətlərə getməsindən danışıb. O bildirib ki, qazandığı pulları övladı ilə istirahətə sərf etməyi sevir.

Gülay qızı Sahilənin qoyduğu qadağadan da danışıb. İfaçı qızının atası Kamli Zeynallı və ona fotolarını paylaşmağa icazə vermədiyini deyib:

"İstəmir, icazə vermir. 13 yaşı tamam olub. Atasına da, mənə də fotosunu paylaşmağı qoymur. Böyük qızdır, sərbəst düşüncəsi var, biz də ona hörmətlə yanaşırıq".

# "Yayılan videoma görə oğlum bütün otağı dağıtdı" - Rəqqasə Fatimə

***"Bu yaxınlarda oğlum Hüseynlə xoşuma gəlməyən hadisə oldu. Elvin Babazadənin (müğənni - red.) ad günündə o oxuyurdu, mən rəqs edirdim. Elvin məni fırlatdı, bütün sosial şəbəkələrdə paylaşıldı, bir şərhlər yazıldı ki... Bu şərhlər övladlarıma pis təsir edir".***

Axşam.az xəbər verir ki, bu sözləri rəqqasə Fatimə Fətəliyeva "Gün ortası" proqramında deyib. O bildirib ki, sosial şəbəkədə yayılan videosuna görə oğlu Hüseyn dalaşıb:



"Otağa girdim ki, oğlumun otağında bütün şəkillər, aksesuarlar sınıb. Ona söz verirəm ki, daha rəqs etməyəcəyəm. Ananız başıaşağı hərəkət etməyib. Zəhmətimlə, əziyyətimlə nələr qazanmışam: yaşadığım ev, sürdüyüm maşın... Bəzən şərhlər... Məclisdə oynaya, əylənə bilərik. Onlara yazılan şərhləri görən övladlarımız stres yaşayırlar. Oğlumun keçid yaşıdır, psixologiyasında travma yaradır. Bundan sonra məclislərdə rəqs etsəm də, sakit".

# Mənsum İbrahimovdan "Muğam" müsabiqəsindəki qalmaqala reaksiya

***Xalq artisti Mənsum İbrahimov IX "Muğam" Televiziya Müsabiqəsinin finalında yaşanan qalmaqala münasibət bildirib.***



Bu barədə sənətçi "Qonaqcanlı" verilişində danışıb. "Çıxan söz-söhbətlər təbiidir. 7 finalçımız və 3 yer var var idi. Burada əsas yer deyil. Bu 3 ay ərzində onları tanıtdıq, 7 finalçının bu mərhələyə gətirib çıxardıq. 20 ifaçının hər birini özümüz seçmişdik. Bunlar xırda söbətlərdir, həmişə olub-olacaq da. Adam var, işi dedi-qodudur. Bizim isə buna vaxtımız yoxdur. Biz onları seçib tanıtdıq. Onların yaradıcılığı bundan sonra başlayır" deyə, Mənsum İbrahimov bildirib.

Qeyd edək ki, sözügedən müsabiqənin iştirakçılarından olan Kənan Novruzov yarışmada haqsızlığa uğradığını iddia edib. O, finalda təqdim olunan diplomdan imtina edib.



# "Həmin vaxt insanın ağlına yaşadığı və yaşatdıqları gəlir"

***Müğənni Günel Zeynalova sosial media hesabındakı paylaşımı ilə diqqət çəkib.***

İfaçı sevdiyi şəxslər tərəfindən zərbə alan insanlara səslənib: "İçdən səmimiyyət, sevgi, şəfqət tapan şəxs, itirincə başqa, sevgi hesab etdikləri ilə sınağa çəkilir. Bunun bir imtahan olduğunu bilməz. Bu dövran öyrənənə qədər davam edir. O vaxta qədər ki, acını yaşayır və yuxudan oyanır.

Özünü xatırladan hisslər daha dərindədir. Və bir anlıq insanın ağlına gəlir: Həyat təcrübəsi, yaşadığı və yaşatdıqları...

Həyat əslində çox gözəldir və yaşamağa dəyər. Qayda sadədir: Öyrənmək, özünüzə dəyər vermək və özünə mərhəmət edib sevmək. Yaddaşında olan hər kəsi elə sevər. Bu aylar və illər çəkə bilər, yetər ki, bu dəyişikliyi sev".

# Səbinə artıq Xankəndidə yaşayır

***Müğənni Səbinə Ərəbli Bakıdan köçüb.***

Sənətçi Xankəndidə yaşayır. Bu haqda sənətçi "Günə uğurla" verilişində deyib: "Bir həftədir köçmüşəm Xankəndiyə. Burada Qarabağ Universitetində dərs deyirəm. Fəxr edirəm ki, Qarabağda çalışıram. Arzum idi".

# "Çox pis zərbə aldım" - Murad Dadaşov

***"Uşaqlıq dostum desəm yanılmaram. Biz Cabirlə eyni vaxtda başladıq: KVN, işə, televiziyaya. Hansı bağlılıq, yoxluq haqda deyim? Həyatdan çox pis zərbə aldım".***

Bu sözləri Xalq artisti Murad Dadaşov "Xəzər xəbər"ə açıqlamasında deyib. Dadaşov mərhum dostu, Əməkdar artist Cabir İmanovla bağlı danışıb.



"Həyat ədalətsizdir? Bundan sonra məndə sual var... Nəinki təkrarolunmaz, əvəzolunmaz insanı itirdik. Bu, adamı lap sarsıdır. Cabir vətənpərvər, dostpərvər, insanpərvər biri idi. Onun 4 övladı üçün Cabiri heç kim əvəz edə bilməz. Biz hamımız birləşib bir Cabir olmağa çalışacağıq" deyə, M.Dadaşov əlavə edib.

Qeyd edək ki, C.İmanov bir neçə gün əvvəl infraktdan dünyasını dəyişib.

# "Nə gülüş ömrü uzadır, nə də idman sağlamlıq imiş"

***Aktyor Elşən Orucov bir neçə gün əvvəl vəfat edən Əməkdar artist Cabir İmanovla bağlı paylaşım edib.***

Aktyor paylaşımında "Nə gülüş ömrü uzadırmış, nə də idman sağlamlıq imiş" sözlərini yazıb.

Qeyd edək ki, C.İmanov idman zalında infrakt keçirərək dünyasını dəyişib.

37_27 IYUI-QARA.qxd 10/2/2025 10:45 PM Page 3





## "Heydər Əliyev yolu Azərbaycanı möhtəşəm Zəfər zirvəsinə yüksəltdi" - Deputat

***"Müstəqilliyin ilk illərində xalqımız taleyüklü sınaqlarla üz-üzə qalmışdı. Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etsə də, ölkəmizdə hökm sürən siyasi böhran fonunda daxili qarşıdurmalar vəziyyəti daha da ağırlaşdırırdı. Silahlı toqquşmaların artması, iqtisadi resursların tükənməsi və vətəndaş müharibəsi təhlükəsi reallığa çevrilmişdi. Bu mürəkkəb dönəmdə xalqın xilaskarı yalnız Ümummilli Lider Heydər Əliyev oldu".***

Bunu "Unikal"a açıqlamasında Milli Məclisin deputatı Bədəl Bədəlov deyib.

Parlamentari bildirib ki, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Bakıya qayıdan Ulu Öndər dərhal milli qurtuluş missiyasını üzərinə götürdü:

"Onun qətiyyəti, siyasi təcrübəsi və uzaqgörənliyi sayəsində ölkəmizdə sabitlik bərpa olundu, siyasi xaos aradan qaldırıldı və müstəqilliyin qorunması üçün zəruri addımlar atıldı. Heydər Əliyevin qayıdışı ilə Azərbaycan yeni inkişaf yoluna qədəm qoydu, xalqımızın milli birlik və həmrəyliyi gücləndi. Həmin dövr Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi kimi dəyərləndirilir.

1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın beynəlxalq enerji layihələrinin aktoruna çevrilməsinə, ölkənin iqtisadi yüksəlişinə və qlobal strateji mövqeyinin möhkəmlənməsinə şərait yaratdı. Bu müqavilə həm də dövlətimizin beynəlxalq nüfuzunu artırdı və ölkənin müstəqil inkişaf yolunu bir daha təsdiqlədi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquqi dövlət quruculuğu gücləndirildi. 1995-ci il noyabrın 12-də referendumla qəbul edilmiş Konstitusiya Azərbaycanı demokratik, hüquqi və dünyəvi dövlət kimi təsbit etdi.

Ulu Öndər Heydər Əliyev Silahlı Qüvvələrin strukturunu modernləşdirərək, peşəkar hərbi kadrların yetişdirilməsinə xüsusi diqqət yetirirdi. Hərbi nizam-intizamın bərqərar olunması, maddi-texniki bazanın möhkəmləndirilməsi və silahlanmanın beynəlxalq standartlara uyğunlaşdırılması ölkənin müdafiə qabiliyyətini əhəmiyyətli dərəcədə gücləndirdi. Hərbi təlimlər, taktiki hazırlıq proqramları və strateji planlaşdırma sahəsində atılan addımlar ordunun döyüş əzmini artırır, həmçinin ölkənin ərazi bütövlüyünün qorunması üçün dayanıqlı zəmin yaradırdı. Ümummilli Liderin bu istiqamətdə reallaşdırdığı siyasət həm də dövlətin strateji təhlükəsizlik imkanlarının genişlənməsinə və milli suverenliyin möhkəmləndirilməsinə xidmət edirdi. Bu amillər regional və beynəlxalq təhlükəsizlik kontekstində dövlətimizin mövqeyini gücləndirdi.

Heydər Əliyev yolu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin siyasi-iqtisadi və hərbi gücü artmış, diplomatik mövqeyi möhkəmlənmişdir. Bütün bunların nəticəsi olaraq 2020-ci ildə baş vermiş Vətən müharibəsində tarixi Zəfər əldə edildi. 2023-cü ildə şanlı ordumuzun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin dövlət suverenliyi təmin olundu. Azərbaycan beynəlxalq arenada qüdrətli, nüfuzlu bir dövlət kimi tanınır. Ulu Öndərin müəyyən etdiyi siyasət bu gün də ölkəmizin inkişafının, sabitliyinin və etibarlı mövqeyinin əsasını təşkil edir".

***M.İbrahimli***

# Sabiq komitə sədrinin kürəkəni ilə bağlı sensasiyalı iddialar

## Əli Həsənovun yaxın qohumu İngiltərədə yaxta şirkəti, Almaniyada klinika, pansionat və otelləri necə əldə edib?

***Baş nazirin keçmiş müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sabiq sədri, hazırda Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun Müşahidə Şurasının sədri olan Əli Həsənovun kürəkəni Elman Allahverdiyevlə bağlı ilginc iddialar irəli sürülüb. Həmin iddialara inansaq, o, xaricdə yeni bizneslər qurur.***

Araşdırmaçı jurnalist Cavanşir Həsənli "facebook" səhifəsində yazıb ki, Almaniyanın Hamburq şəhərində yaşayan Allahverdiyev bu ilin yanvarında Londonda OPAL YACHTING LTD adlı şirkət təsis edib. Araşdırmaya əsasən, şirkət hələ ki, "dormant" - yeni fəaliyyətsiz statusda olsa da, bu addım gələcəkdə yaxta biznesinə başlamaq üçün hüquqi baza və platforma yaratmaq məqsədi daşıya bilər. O da iddia edilir ki, bu cür şirkətlər vasitəsilə sahibkarlar bank hesabı aça, viza və oturum icazəsi üçün əsas yarada və investor cəlb edə bilirlər.



Bildirildiyinə görə, Elman Allahverdiyev Almaniyada da bir sıra şirkətlərin sahibidir. O, Hamburqda LOHIMEX GmbH şirkətini təsis edib, "AuK Hotel GmbH"-nı alaraq "Glorious Hotels & Resorts GmbH" adı ilə yenidən qeydiyyatdan keçirib. Bu şirkətlər vaxtilə Bad Bevensen şəhərində satın alınmış "Kieferneck" otelində qeydiyyatdadır.

Həmçinin vurğulanır ki, Allahverdiyevin Bad Bevensendə aldığı başqa otellər də var. 2014-cü ildə şəhərin Bergstra?e küçəsində "Heidekrug" otelini alıb, lakin 5 il istifadəsiz saxladıqdan sonra 2019-cu ildə "Manfred Preuss" adlı şəxsə dəyər-dəyməzinə satıb. Yeni sahibi otel otaqlarını 15 mənzilə çevirərək satışa çıxarıb.

Eyni ildə Elman Allahverdiyev Bad Bevensendə sahəsi 14 770 kv.m olan keçmiş "Diabet Klinikası"nı da alıb. Burada vaxtilə Almaniya Diabet Muzeyi yerləşirdi. 2019-cu ildə klinika binası sökülüb, həmin ərazi isə bu günədək xarabalığı xatırladır. Bundan başqa, Allahverdiyev kurort şəhərinin Haberkamp küçəsində yerləşən "Grüning Hotel", eləcə də "Nicolas" pansionatını da alıb.

Beləliklə, iddia olunan siyahıya görə, Əli Həsənovun kürəkəni yalnız Bad Bevensen şəhərində 4 otel, 1 pansionat və 1 klinika binasına sahib olub.

O da qeyd olunur ki, Elman Allahverdiyevin adı ictimaiyyətə daha çox oğlu Nail Allahverdiyevin 2017-ci ildə törətdiyi ağır yol qəzası ilə bağlı tanışdır. Həmin ilin avqustunda Nail Allahverdiyev "Mercedes-Gelandewagen" markalı avtomobillə yüksək sürətlə hərəkət edərək iki nəfərin ölümünə, daha ikisinin isə müxtəlif dərəcəli bədən xəsarətləri almasına səbəb olmuşdu. Araşdırmaçı jurnalistin iddiasına görə, məhz bu hadisədən dərhal sonra Elman Allahverdiyev Azərbaycandan külli miqdarda vəsait çıxararaq Almaniyada milyonlarla avro dəyərində otellər və klinika binası alıb.

Xatırladaq ki, Əli Həsənov 1998-2019-cu illərdə Baş nazirin müavini, 1998-2018-ci illərdə isə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsində çalışıb.

Bəzi iddialara görə, E.Allahverdiyevin Avropanı biznes sarıdan "fəth etməsində" müstəsna rol qayınatası ilə birbaşa bağlıdır. Belə ki, o, sabiq komitə sədrinin vəzifədə olduğu müddətdə sürətlə varlanıb. Bu isə Həsənovun şəxsi biznesinin idarə olunmasında kürəkəninin həlledici rollardan birini oynaması ilə izah edilir. Misal kimi isə E.Allahverdiyevin 2004-cü ildə təsis etdiyi "Gardenia" MMC göstərilir. Bildirilir ki, bu şirkət yaşıllaşdırma, suvarma sistemlərinin quraşdırılması və satışı sahəsində ixtisaslaşıb, "Hollandiya, İtaliya, Almaniya, İsrail, Türkiyə, Rusiyadan müvafiq sistemlərin, gübrələrin, dekorativ ağac və güllərin idxalını həyata keçirir. Şirkət Əli Həsənovun nüfuzu sayəsində iri dövlət sifarişlərindən külli-miqdarda vəsait əldə edib" deyə vaxtilə yerli media yazırdı.

Bundan başqa, E.Allahverdiyev məhz qayınatası vəzifədə olarkən başqa bir şirkət də yaradıb. Onun 2007-ci ilin aprelin 3-də təsis etdiyi "Semari" MMC bitkiçilik və yaşıllaşdırma sahəsində fəaliyyət göstərir. Ə.Həsənovun kürəkəninin təsisçiliyi ilə daha bir şirkət - "C.T.S. Automotiv" MMM isə 2006-cı ilin iyulunda qeydiyyatdan keçib. Keçmiş komitə sədrinin E.Allahverdiyevlə evili olan qızının isə vaxtiə "Golden House" adlı Mənzil Tikinti Kooperativi (MTK) təsis etdiyi, həmin şirkətin tikinti sektorunda fəaliyyət göstərdiyi və dövlət sifarişlərinin icrasında iştirak etdiyi, bütün bunların da məhz Ə.Həsənovun nüfuzu sayəsində mümkün olduğu deyilir. Təsadüfi deyil ki, sabiq komitə sədri son olaraq Baş nazirin müavini postundan getdikdən sonra həmin şirkətlərin fəaliyyəti ya tamamilə zəifləyib, ya da dayanıb.

Maraq üçün deyək ki, 2017-ci ildə keçmiş komitə sədrinin nəvəsi, E.Allahverdiyevin isə oğlu Nailin törətdiyi qəza nəticəsində iki nəfərin ölümü və iki nəfərin yaralanması ciddi rezonans doğurmuşdu. Lakin yüksək vəzifə sahibi olan babasının sayəsində iki il sonra azadlığa buraxılmışdı. Nailin bahalı avtomobillər kolleksiyası və yüksək sürət həvəskarı olduğu heç kimə sirr deyildi...

***Toğrul Əliyev***

# Paşinyan Bakı ilə sülh prosesinə zərər verən amillərdən narahatdır

## Politoloq: “Nikol Paşinyan yaxşı anlayır ki, Azərbaycan qanunları ilə yaşamaq istəməyən ermənilərin Qarabağa qayıdışı tələbinə qoşulsa...”

***“Ermənistanın baş naziri Nikol Paşinyan sentyabrın 30-da AŞPA-nın iclasında çıxışı zamanı ermənilərin Qarabağa qayıdışının Bakı ilə sülh prosesinə zərər verə biləcəyini deyib. O bildirib ki, Qarabağı könüllü tərk edən və Azərbaycan vətəndaşlığını qəbul etməyən ermənilərin gələcəyi artıq Ermənistan və Ermənistan vətəndaşlığı ilə bağlıdır”.***

“Unikal” xəbər verir ki, bu fikirləri politoloq Elxan Şahinoğlu səsləndirib. Onun fikrincə, Paşinyanın bu yanaşması böyük ehtimalla AŞPA-nın bir qrup deputatı üçün gözlənilməz olub:

“Çünki, həmin deputatlar ölkələrindəki erməni lobbisinin üzvləri ilə əl-ələ verərək, “ermənilərin



Qarabağa qayıdışı təmin edilməlidir” çağırışlarına ara vermir, bu mövzuda müxtəlif tədbirlər keçirirlər. ABŞ Konqresində də eyni səslər ucaldılır və başda Frenk Pallone olmaqla bir qrup ermənipərəst konqresmen dövlət katibi Marko Rubiodan da ermənilərin Qarabağa qayıdışının gerçəkləşməsini tələb edirlər. Bu tələblər səslənərkən ermənilərin baş naziri qətiyyətlə ermənilərin Qarabağa qayıdışının əleyhinə olduğunu söyləyir. Çünki, Nikol Paşinyan yaxşı anlayır ki, Azərbaycan qanunları ilə yaşamaq istəməyən ermənilərin Qarabağa qayıdışı tələbinə qoşulsa, bu, sülh danışıqları apardığı Azərbaycanla münasibətləri yenidən gərginləşdirəcək. Bu, Paşinyana lazım deyil. Baş nazir AŞPA-dakı çıxışında elə belə də deyib: “Ermənistan və Azərbaycan sadəcə olaraq bir-birini rahat buraxmalı və diqqəti iqtisadi əməkdaşlığa və dialoqa yönəltməlidirlər”. Paşinyanın ermənilərin Qarabağa qayıdışı tələbini səsləndirməməsinin başqa səbəbi də var. Paşinyan düşünür ki, bununla azərbaycanlıların Qərbi Zəngəzura qayıdışının qarşısını almış olacaq. Yəni ,onun məntiqinə görə, ermənilər Qarabağa qayıtmırlarsa, azərbaycanlılar da vaxtilə yaşadıqları Qərbi Zəngəzura qayıtmamalıdırlar”.

E.Şahinoğlu onu da nəzərə çatdırıb ki, Nikol Paşinyanın ermənilərin Qarabağa qayıdışının əleyhinə olması müxtəlif ölkələrdəki erməni lobbisinin və lobbinin dəstəklədiyi siyasətçilərin səylərini heçə endirir: “Vaxtilə Qarabağda yaşayan ermənilərin özləri də geri dönmək istəmirlər, əks halda onların səsi gələrdi. Çünki, onlar da Paşinyan kimi anlayırlar ki, Qarabağa qayıdış yalnız Azərbaycan qanunlarının və pasportlarının qəbulu əsasında mümkündür. Buna isə onlar razı deyillər. Deməli, Paşinyanın söylədiyi kimi, Qarabağ erməniləri Ermənistanda həyatlarını qurmalıdırlar”.

Siyasi şərhçi Asif Nərimanlı isə bildirib ki, Paşinyan Zəngəzur dəhlizi terminologiyasına qarşı növbəti bəyanatını AŞPA-da verib və bu, sayca üçüncüdür. Onun fikrincə, Vaşinqton anlaşmasından sonra erməni baş nazir ilk etirazını “ŞƏT plyus” formatındakı görüşdə edib: “Əliyev Çində Zəngəzur dəhlizi anlaşmasını gündəmə gətirdi, bunun bütövlükdə Avrasiyanın nəqliyyat şəbəkəsinə verəcəyi töhfədən danışdı. Paşinyan da cavab çıxışında “Zəngəzur dəhlizi ritorikasının əldə olunan sülh atmosferinə uyğun olmadığını”, “Vaşinqton razılaşmasına əsasən bunun “Trampın Sülh və Rifah Marşrutu” adlandırıldığını” bildirdi. BMT Baş Assambleyasının 80-ci sessiyasında Əliyevin Zəngəzur dəhlizinin açılması ilə bağlı dedikləri də Paşinyanın etirazına səbəb oldu. Zəngəzur dəhlizi termininin sənədlərdə olmadığını deyən Paşinyan Nyu-Yorkdan birbaşa uçduğu Strasburqda - AŞPA sessiyasında da eyni motivli tezislərdən çıxış etdi. Rəsmi İrəvanın Zəngəzur dəhlizi terminindən narahatlıq keçirməsi iki səbəbdən qaynaqlanır. Birincisi, daxili ictimai rəydə hakimiyyətə qarşı yönələn ittihamlardır: erməni baş nazir cavab haqqından istifadə etməklə erməni cəmiyyətinə “dəhliz verməmişik” mesajını çatdırmağa çalışır. İkincisi, Bakının mütəmadi olaraq bəhs etdiyi Zəngəzur dəhlizi termininin beynəlxalq leksikona daxil olmasıdır. AŞPA-da baş verənlər bunu təsdiq edir: avropalı parlamentarilərdən biri erməni baş nazirə sual verərkən, Zəngəzur dəhlizi terminindən istifadə edib, buna əsəbiləşən Paşinyan da “o ifadəni haradan oxumusunuz? Belə bir ifadə yoxdur, olmayıb və əmin olun ki, Ermənistanla Azərbaycanın razılaşdırdığı heç bir sənəddə olmayacaq” deyib”.

Şərhçi onu da vurğulayıb ki, Paşinyanın Zəngəzur dəhlizi termininə davamlı şəkildə etiraz etməsinin əsas hədəflərindən biri də məsələni Vaşinqtonun gündəminə daşımaq, Trampa “Əliyev 8 avqust anlaşmasına qarşı çıxır” mesajını verməkdir: “Lakin Əliyev bu cəhdləri heçə endirən gediş etdi: BMT-də çıxışı zamanı bildirdi ki, “Vaşinqton Sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”dur (TRIPP).

Bu, Zəngəzur dəhlizindən TRİPP layihəsinin tərkib hissəsi kimi bəhs edilməsi idi və Əliyev bununla:

- dəhliz ifadəsinə Vaşinqtonun yanaşmasını loyallaşdırır;
- TRİPP-dən bəhs edərkən, Zəngəzur dəhlizi ifadəsindən də istifadə etmək zərurəti yaradır;

ABŞ-nin Paşinyanın şikayətlərinə diqqət ayırmaması, o cümlədən, AŞPA-da - Azərbaycanın iştirak etmədiyi beynəlxalq platformada baş verənlər Bakının planının işlədiyindən xəbər verir”.

***Seymur Əli***



## Professor Yusif Babanlı "Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik" dərsində məruzəçi oldu

***Bakı Su İdman Sarayında ”Biz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik” adlı məktəbin növbəti dərsi keçirilib.***

”Unikal” xəbər verir ki, Yeni Azərbyacan Partiyası Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev açılış nitqində Ümummilli Lider Heydər Əliyevin gənclərlə bağlı gördüyü işləri və bu sahədəki irsini müntəzəm olaraq vurğulayıb.

O, bildirib ki, Ulu Öndər gənclərin ölkənin gələcəyi üçün böyük əhəmiyyət kəsb etdiyini hər zaman qeyd etmiş və onların təhsili, təcrübə qazanmaları, vətənpərvərlik ruhunda böyümələri üçün geniş imkanlar yaratmışdır. Heydər Əliyevin dövründə gənclər üçün müxtəlif dövlət proqramları həyata keçirilmiş, onların beynəlxalq təcrübə qazanması və yüksək səviyyədə təhsil almaları üçün şərait yaradılmışdır.

Onun rəhbərliyi ilə ölkədə gənclər üçün bir çox mədəni və sosial layihələr təşkil edilmiş, gənclərin müxtəlif sahələrdə inkişaf etməsi üçün təşviq edilmişdir. Bu siyasət, gənclərin öz potensiallarını tam şəkildə reallaşdırmalarına şərait yaratmış və ölkə inkişafında gənclərin müstəsna rolunu təmin etmişdir.

Məruzəçi Professor Yusif Babanlının çıxışında qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə gənclərin idmanla məşğul olmaları, sağlam həyat tərzi sürmələri və idman sahəsində inkişaf etmələri üçün geniş imkanlar yaratmış, idmançılara daim xüsusi diqqət ayırmış, gəncləri idmana cəlb etməklə onların fiziki və mənəvi inkişafını təmin etməyə çalışmışdır. Onun dövründə müxtəlif idman infrastrukturunun inkişafı, yeni idman komplekslərinin tikilməsi və mövcud idman obyektlərinin təmiri həyata keçirilmişdir. Eyni zamanda, beynəlxalq idman yarışlarında Azərbaycanın təmsil olunması və mükafatlar qazanılması üçün şərait yaradılmışdır. Bu da gənclərin idmanla daha sıx məşğul olmasına, dünya səviyyəsində uğurlar əldə etmələrinə stimul olmuşdur.

Müdavimlər çıxış etdikdən sonra verdikləri suallar cavablandırılıb.

Tədbirin sonunda müdavimlər Bakı Su İdman Sarayını ekskursiya ediblər.

## Ərdoğan növbəti dəfə İsraili qınadı

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İsrailin Sumud Flotillasına hücumuna sərt reaksiya verib.***

”Unikal” Türkiyə mətbuatına istinadən xəbər verir ki, Ərdoğan bu barədə Ankarada AK Partiya Konqres Mərkəzində keçirilən iclasda danışıb.

”Sumud basqını Qəzzada vəhşiliyi törədənlərin üzünü bir daha bütün dünyaya nümayiş etdirdi. Humanitar yardım gətirmək və Qəzzada uşaqların açıq şəkildə öldüyü vəhşiliyə diqqət çəkmək üçün yola çıxan Qlobal Sumud Donanmasını hədəf alan quldurluğu qınayıram. İsrail hökumətinin beynəlxalq sularda dinc əhaliyə hücumu soyqırımdır”, - deyə reaksiya verib.

Xatırladaq ki, İsrail Hərbi Dəniz Qüvvələri Qəzza zolağı sahillərinə fələstinlilər üçün humanitar yardım aparan Sumud Donanmasının 15 gəmisini ələ keçirib. Nəticədə 201 fəal saxlanılıb. Onlardan 25-i Türkiyə vətəndaşıdır.

***Gülayə Mecid***

37_27 IYUI-QARA.qxd 10/2/2025 10:50 PM Page 5



# İlham Əliyev Dik Şuf ilə görüşdü



***Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşü olub.***

”Unikal” xəbər verir ki, Niderlandın Baş naziri Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəliyə aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələrlə əlaqədar dövlətimizin başçısına təbriklərini çatdıraraq, bunun mühüm əhəmiyyət daşıdığını vurğuladı.

Prezident İlham Əliyev də öz növbəsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistanla Azərbaycan arasında imzalanmış Vaşinqton Bəyannaməsinin və Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına dair sənədin regional sülh baxımından əhəmiyyətinə toxundu, iki ölkə arasında artıq sülhün mövcud olduğunu qeyd etdi.

Görüşdə Niderland şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi vurğulandı, bunun gəmiçilik, limanların qurulması, elektrik sənayesi, kənd təsərrüfatı, şəhərsalma və digər sahələri əhatə etdiyi qeyd olundu.

Söhbət zamanı Azərbaycanla Niderland arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

Niderlandın Baş naziri ölkəmizdə COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı və həmin tədbir çərçivəsində beynəlxalq iqlim gündəliyi ilə əlaqədar ciddi nəticələrin əldə olunduğunu qeyd etdi.

# İlham Əliyevlə Paşinyanın növbəti görüşü: Sülhün daha da möhkəmləndirilməsi bir daha təsdiq edildi

***Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü olub.***



”Unikal” xəbər verir ki, görüşdə tərəflər ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilmiş Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmaların əhəmiyyətini vurğulayıblar. Onlar Ermənistan və Azərbaycan arasında sülhün daha da möhkəmləndirilməsi istiqamətində səy göstərməyə hazır olduqlarını bir daha təsdiq ediblər.

Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri regionda nəqliyyat kommunikasiyalarının faydalarını vurğulayıblar, Azərbaycan ərazisində infrastrukturun inkişafı ilə bağlı cari işlərin gedişatı və Ermənistan ərazisində TRIPP layihəsini müzakirə ediblər, Vaşinqton Bəyannaməsinin icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər bu xüsusda ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların ləğv olunması ilə bağlı yekdilliklə qəbul edilmiş qərarı alqışlayıblar.

Görüşdə tərəflər etimad quruculuğu tədbirlərinin bundan sonra da həyata keçirilməsinin vacibliyini vurğulayıb və təmasları davam etdirmək barədə razılığa gəliblər.

# Azərbaycanda manatla verilmiş kreditlər bahalaşıb




***Cari ilin sentyabr ayının 1-nə Azərbaycanda milli valyutada yeni verilmiş kreditlər üzrə orta illik faiz dərəcəsi 18.52% təşkil edib.***

”Unikal” Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, manatla yeni verilmiş kreditlərin orta faiz dərəcəsi ilin əvvəli ilə müqayisədə 1.96 faiz bəndi, ötən ilin müvafiq dövrü ilə müqayisədə isə 2.40 faiz bəndi artıb. Qeyd edək ki, cari ilin sentyabr ayının 1-nə Azərbaycanda bankların kredit portfelinin həcmi 28 milyard 704.9 milyon manata bərabər olub. Kredit portfelinin 15 milyard 91.8 milyon manatı biznes kreditləri, 9 milyard 114.5 milyon manatı istehlak kreditləri, 4 milyard 498.6 milyon manatı isə ipoteka kreditləri təşkil edib.

# Sahibə Qafarova Cənubi Afrikada G20-də çıxış edib

***Milli Məclisin sədri Sahibə Qafarova Cənubi Afrikaya işgüzar səfəri çərçivəsində “Böyük iyirmilik” ölkələrinin (G20) Parlament Sədrlərinin 11-ci Sammitində (P20) “Fəlakətlərə qarşı dayanıqlığın və cavab tədbirlərinin gücləndirilməsi” mövzusu üzrə çıxış edib.***




Milli Məclisin sədri heç bir ölkənin iqlim dəyişikliyinin nəticələrindən sığortalanmadığını bildirib.

Spiker çıxışında fəlakətlərə və iqlim təsirlərinə qarşı zəruri cavab tədbirlərinin görülməsində parlamentlərin roluna toxunaraq, deyib ki, bu çərçivədə qanunvericilik prosesləri reaktiv deyil, proaktiv xarakter daşımalı, iqlim dəyişikliyinə qarşı adaptasiyanı və risklərin azaldılmasını ümumi yanaşma kimi əks etdirməlidir. Onun sözlərinə görə, bu, həm də Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə xidmət edəcək.

S.Qafarova Milli Məclisin artıq ətraf mühit, torpaq, su, meşə, kənd təsərrüfatı, mülki müdafiə və digər sahələr üzrə iqlim dəyişikliyinin mənfi təsirlərinə hazırlıq üçün əsas yaradan çoxsaylı qanunlar qəbul etdiyini söyləyib.

Spiker ötən ilin noyabrında Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə ən uğurlu COP-lardan birinə - COP29-a ev sahibliyi etdiyini xatırladaraq, deyib ki, ölkəmiz ümumi məqsədlərin həyata keçirilməsi naminə Qlobal Cənub və Qlobal Şimal arasında daha güclü körpülər qurmağı, xüsusilə inkişaf etməkdə olan ölkələrin səslərinin eşidilməsini təmin etməyi bacardı.

Spiker Sahibə Qafarova, həmçinin diqqətə çatdırıb ki, Milli Məclis Parlamentlərarası İttifaqla birlikdə, COP29 çərçivəsində iqlim dəyişikliyinə qarşı parlament səylərinin birləşdirilməsinə yönəlmiş Parlament iclasına da ev sahibliyi edib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Azərbaycan və Özbəkistan dünya çempionatına ev sahibliyi edəcəklər

***Azərbaycan və Özbəkistan 2027-ci ildə keçiriləcək 20 yaşadək futbolçulardan ibarət milli komandalar arasında dünya çempionatının final mərhələsinə birgə ev sahibliyi edəcəklər.***



”Unikal” xəbər verir ki, bu gün FIFA-nın İcraiyyə Komitəsinin növbəti iclasında qərar qəbul olunub.

Tarixi nailiyyət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti cənab Şavkat Mirziyoyevin uğurlu idman siyasətinin, o cümlədən ölkələrimizdə futbolun inkişafına göstərdikləri diqqətin nəticəsidir.

AFFA Yüksək inam və etimada görə FIFA İcraiyyə Komitəsinin üzvlərinə, xüsusən də, qurumun prezidenti cənab Canni İnfantinoya minnətdarlığını bildirib. Qeyd edək ki, 1977-ci ildən etibarən iki ildən bir təşkil edilən U-20-lərin dünya çempionatının 25-cisinə Azərbaycan və Özbəkistan ev sahibliyi edəcəklər. Bununla futbol tarixində ilk dəfə kişilərin yarışında mundial Azərbaycanda keçiriləcək. Həmçinin ilk dəfə Azərbaycanın kişilərdən ibarət milli komandası dünya çempionatının final mərhələsində iştirak edəcək.

İndiyə qədər Argentina 6, Braziliya 5 dəfə dünya çempionu olub. Portuqaliya və Serbiya hərəyə 2 dəfə mundialın qalibi olublarsa, Uruqvay, Qana, İspaniya, Rusiya, Almaniya, İngiltərə, Fransa və Ukrayna hərəyə 1 dəfə kuboku qazanıblar. Avropanın nəhəng klubları kifayət qədər böyük nüfuza malik olan U-20-lərin dünya çempionatlarından saysız-hesabsız istedadlı futbolçular kəşf ediblər. Hazırda Çilidə keçirilən 24-cü dünya çempionatında 24 komanda 6 qrupda mübarizə aparır. 2023-cü ildə Argentinada təşkil olunan son turnirin qalibi isə Uruqvay yığması olub.

37_27 IYUI-QARA.qxd 10/2/2025 10:50 PM Page 6



# Prezident Kopenhagendə Aİ liderləri ilə görüşdü

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü olub.***



"Unikal" xəbər verir ki, görüşdə Antonio Koşta və Ursula Fon der Lyayen dövlətimizin başçısını Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbrik etdilər, bunun regionda davamlı sülhün təmin olunmasına xidmət edəcəyinə ümidvarlıqlarını bildirdilər. Antonio Koşta və Ursula Fon der Lyayen sülhün dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəklərini bildirdilər. Onlar, həmçinin regionda nəqliyyat bağlantılarının inkişafının Avropa İttifaqı üçün mühüm istiqamət olduğunu dedilər.

Görüşdə Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rola toxunuldu, 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair əldə edilmiş razılaşmaya uyğun olaraq Azərbaycanın Avropanın qaz bazarına ixracının həcminin artdığı bildirildi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi və sülh gündəliyi ilə bağlı nailiyyətlərin bütün region, o cümlədən Ermənistan və Azərbaycan üçün tarixi əhəmiyyət kəsb etdiyini dedi. Prezident İlham Əliyev həm Ermənistanın, həm də Azərbaycanın artıq sülh şəraitində yaşamağa uyğunlaşdıqlarını qeyd etdi və ölkəmizin sülh gündəliyinin irəli aparılması üçün səyləri davam etdirəcəyini vurğuladı.

Prezident İlham Əliyev hazırda Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 üzv dövlətin Azərbaycan qazını aldığını bildirdi və bunun Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfə olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycanın Orta Dəhlizin inkişafında oynadığı rolu qeyd edərək, ölkəmizdə nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsi istiqamətində görülən işlərdən danışdı və hazırda Mərkəzi Asiyadan Azərbaycan ərazisindən nəqliyyat daşımalarının həcminin artdığını bildirdi.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişaf etdirilməsi və yeni səviyyəyə qaldırılması üçün yaxşı imkanların olduğu vurğulandı.

# İlham Əliyevin Kopenhagendə İtaliya Nazirlər Şurasının sədri ilə görüşü olub

***Oktyabrın 2-də Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü olub.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycanla İtaliya arasında münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyi bildirildi və bu xüsusda bir neçə gün əvvəl İtaliya Prezidentinin Azərbaycana uğurlu rəsmi səfəri, səfər çərçivəsində Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışı qeyd olundu.



Söhbət zamanı Azərbaycan ilə İtaliyanın enerji sahəsində uğurlu əməkdaşlığına toxunuldu, ölkəmizin İtaliyanın enerji təhlükəsizliyinə töhfəsi vurğulandı. Ölkələrimiz arasında investisiyalar, mədəniyyət, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu.

# Azərbaycan lideri Kopenhagendə Zirvə toplantısının açılışında iştirak edib

***Danimarkanın paytaxtı Kopenhagen şəhərində oktyabrın 2-də "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib.***



"Unikal" xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Danimarkanın Baş naziri Mette Frederiksen Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşılayıb.

Qeyd edək ki, "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Plenar iclaslarda və ondan sonra keçiriləcək dəyirmi masalarda Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya-Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrit təhlükələr kimi mövzular müzakirə olunur.

"Avropa Siyasi Birliyi" təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.



# Azərbaycan və Yaponiya XİN-ləri arasında növbəti siyasi məsləhətləşmələr keçirilib

***Oktyabrın 2-də Bakı şəhərində Azərbaycan Respublikası ilə Yaponiya Xarici İşlər Nazirlikləri arasında növbəti siyasi məsləhətləşmələr keçirilib.***

Xarici İşlər Nazirliklərindən verilən xəbərə görə, nümayəndə heyətinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, Yaponiya tərəfindən isə Xarici İşlər Nazirliyinin Avropa bürosunun Baş direktorunun müavini, Mərkəzi Asiya, Qafqaz və GUAM üzrə xüsusi nümayəndə Masaki İşikava başçılıq ediblər.

Siyasi məsləhətləşmələr zamanı siyasi, iqtisadi, investisiya, ticarət, təhsil, mədəniyyət, humanitar, enerji, ekologiya, iqlim, turizm və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

İkitərəfli münasibətlərin inkişafının müxtəlif sahələri, beynəlxalq arenada və regional məsələlər üzrə aparılan müzakirələrin qarşılıqlı anlaşma baxımından əhəmiyyəti, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın davam etdirilməsinin vacibliyi xüsusi qeyd edilib.

Nazir müavini Elnur Məmmədov qarşı tərəfə Azərbaycanın sülh gündəliyi, Ermənistanla münasibətlərdə normallaşma prosesi, işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri və investisiya layihələri haqqında ətraflı məlumat verib.

# Tahir Budaqov Statistika Komissiyasının 14-cü sessiyasında iştirak edir

***2025-ci ilin oktyabrın 1-də Türkiyənin paytaxtı Ankara şəhərində İslam Əməkdaşlıq Təşkilatının İslam ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzinin (SESRIC) təşkilatçılığı ilə İslam Əməkdaşlıq Təşkilatının Statistika Komissiyasının 14-cü sessiyası öz işinə başlayıb.***

"Unikal" xəbər verir ki, tədbirdə ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir.

Oktyabrın 3-dək davam edəcək sessiya zamanı Statistika Komissiyasının son bir il ərzində fəaliyyəti və 2026-2030-cu illər üçün fəaliyyət proqramı nəzərdən keçiriləcək, eyni zamanda məlumat əsaslı energetikaya keçidin təmin olunmasında milli statistika qurumlarının rolu, rəqəmsallaşma vasitəsilə milli statistika qurumlarının modernizasiyası, 4-cü Dayanıqlı İnkişaf Məqsədinin (Keyfiyyətli təhsil) göstəricilərinin monitorinqi və hesabatlılıq, digər aktual məsələlər üzrə müzakirələr aparılacaq, ölkə təcrübələri bölüşüləcəkdir.

Sessiyanın 2-ci günü Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Toğrul Əcəlov rəqəmsallaşma vasitəsi ilə milli statistika sisteminin modernizasiyasına dair təqdimat edib, Komitə tərəfindən göstərilən elektron xidmətlər, məlumat yayımı prosesinin rəqəmsallaşdırılması, inzibati məlumatlardan istifadənin genişləndirilməsi, rəsmi statistikada iri həcmli və peyk təsviri məlumatlarından istifadə, kənd təsərrüfatı siyahıyaalınmasının rəqəmsallaşdırılması sahəsində görülmüş işlər barədə tədbir iştirakçılarına geniş məlumat verib.

# Azərbaycan və Ermənistan liderlərini təbrik etdi

***Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta Danimarkanın paytaxtı Kopenhagendə keçirilən Avropa Siyasi Birliyi sammitində çıxışında Prezident İlham Əliyevi və Baş nazir Nikol Paşinyanı tarixi sülhə nail olduqlarına görə təbrik edib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" sosial şəbəkəsində yazıb.



## "Başıma yumruqla, avtomatın qundağı ilə vururdu" - Mnatsakanyanı tanıdı

***Oktyabrın 2-də Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesində zərərəçəkmiş şəxs İlham Məmmədov ifadə verib.***

"Unikal" xəbər verir ki, o, 2002-ci il mayın 10-da hərbi xidmətdə olarkən, posta gedən zaman Haramı düzündə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü deyib. İ.Məmmədov deyib ki, həmin vaxt silahsız olub. Ermənistan silahlı qüvvələrinin hərbçiləri onu döyüb, işgəncələrə məruz qoyub. Bildirib ki, onu döyən zabitlərdən biri xüsusi qəddarlıq nümayiş etdirib. O, həmin zabitin adını sonradan öyrəndiyini, onun adının Levon olduğunu deyib.

Zərərçəkmiş şəxs dövlət ittihamçılarının suallarına cavabında təqsirləndirilən şəxs Levon Mnatsakanyanı göstərərək qəddarlıq edən şəxsin o olduğunu söyləyib və deyib: "O, başıma yumruqla, sonra isə avtomatın qundağı ilə vururdu. Məni səngərin üstünə çıxarıb avtomatla atəş açdı. Həmin vaxt arxam Azərbaycan Ordusunun mövqelərinə tərəfə idi. Elə yerdə durmağa məcbur etmişdi ki, bizimkilər bilmədən məni vura bilərdi. Sonra məni məcburi olaraq minalı ərazilərdə gəzdirdilər".

İ.Məmmədov Azərbaycanın həmin vaxt Ermənistan silahlı qüvvələrinin işağlı altında olan ərazilərində bir həftə saxlanılıb. Sonra isə Ermənistana göndərilib. 6 ay 15 gün saxlanıldıqdan sonra Azərbaycana təhvil verilib.

Zərərçəkmiş müdafiə tərəfinin suallarına cavabında əsir götürülənə qədər L. Mnatsakanyanı əvvəllər tanımadığını, həmin vaxtkı vəzifəsini bilmədiyini söyləyib. "Ancaq həmin vaxt ona olan münasibətə görə təxmin edirəm ki, vəzifəsi qərargah rəisi idi".

O, Levon Mnatsakanyanın suallarına cavabında 1973-cü ildə anadan olduğunu, əsir götürülən zaman baş leytenant rütbəsində olduğunu bildirib. Zərərçəkmiş deyib: "Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirərkən zabit rütbəsi verdilər. Orda hərbi kafedra var idi".

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# "İnsanların rahatlığının yaradılmasına ehtiyac var"

## Siyavuş Novruzov: "Vətəndaş ağrını, əziyyət çəkmədən, iki təşkilat arasında gedib-gəlmədən, qısa müddətdə sənədlər məsələsi həll oluna bilər"

***Milli Məclisin deputatı Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, icbari tibbi sığorta ilə özəl xəstəxanalarda əməliyyat olunan şəxslərin bir neçə gün qalması üçün xərclərin ödənilməsindən, TƏBİB-in elektron sisteminin tez-tez çökməsindən, TƏBİB və Səhiyyə Nazirliyinin birləşdirilməsinin nə zaman ola biləcəyindən və onkoloji xəstəliklərin müalicəsinin icbari tibbi sığortaya salınmasının vacibliyindən danışıb.***

***-Siyavuş müəllim, Milli Məclisin payız sessiyasının ilk iclasında çıxışınız zamanı icbari tibbi sığortanın çatışmazlıqlarından danışdınız. İcbari tibbi sığortanın təkmilləşdirilməsinə ehtiyac olduğunu söylədiniz. Bu istiqamətdə hansı addımlar atılmalıdır?***

-İcbari tibbi sığorta vacib məsələlərdən biridir. Dünya ölkələrində bu sahəyə müxtəlif yanaşmalar var. Dövlət çalışır ki, xəstəliklərin böyük hissəsi icbari tibbi sığorta ilə əhatə olunsun, vətəndaşlar maddi əziyyət çəkməsinlər. Artıq bir sıra xəstəliklərin müayinə və müalicəsi icbari tibbi sığorta ilə həyata keçirilir. Bu, mütəmadi olaraq təkmilləşdirilməlidir. Bəzi xəstəliklər var ki, icbari tibbi sığortaya salınmayıb. Təkmilləşdirmə işlərindən biri odur ki, dünya elektronlaşma sisteminə keçib. Artıq kağız sənəd daşımaq, göstərmək və digər məsələlər yoxdur. Xəstəxana icbari tibbi sığortaya aid edirsə, vətəndaşın müraciət etməsi ilə sənədlər hazır ola bilər. Vətəndaş ağrını, əziyyəti çəkmədən, iki təşkilat arasında gedib-gəlmədən, qısa müddətdə sənədlər məsələsi həll oluna bilər. Yəni, sənədlərin sadələşdirilməsi lazımdır. Qurumlar arasında bu məsələlər həll olunmalıdır. Bu addımların atılması günün tələbidir. Digər məsələ xərclərin hansının icbari tibbi sığorta və ya vətəndaşın özü tərəfindən ödənilməsidir. Maksimum çalışmalıyıq ki, bu xərclər icbari tibbi sığorta tərəfindən ödənilsin. Dövlət tibb müəssisələri ilə yanaşı özəl xəstəxanalar da icbari tibbi sığortanı həyata keçirir. Bəzi hallarda özəl xəstəxanalarda qalmaq xərcləri çox yüksəkdir. Bu xərclər sığorta ilə əhatə edilməyəndə elə miqyasa gəlib çatır ki, bəzi hallarda əməliyyat xərcindən çox olur. Elə əməliyyatlar var ki, xəstəni 1 gündən sonra evə buraxmaq olar. Amma ağır əməliyyatlar var ki, xəstə bir neçə gün həkim nəzarəti altında qalmalıdır. Bu baxımdan bir neçə gün qalmağın xərcləri də ora əlavə edilməlidir. Xəstəliyin növünə uyğun olaraq müddət müəyyənləşə bilər. Müəyyən edilən vaxtdan artıq qalmaq istəyən şəxs isə özü ödəniş etməlidir.

***-Elektronlaşma məsələsini qeyd etdiniz. Son zamanlar TƏBİB-in elektron sisteminin çökməsi nəticəsində xəstəxanalarda uzun növbələr yaranıb. Bu da vətəndaşlar arasında haqlı narazılıqlar yaradır. Bu işlərin təşkili zamanı nələrə diqqət edilməlidir?***

- Bəzən müxtəlif yoxlamalar zamanı bunlar baş verir. Bununla məşğul olan şəxslər, proqramlaşdıranlar diqqətlə yanaşmalıdır. Ora müraciət edən şəxslər ehtiyacdan edir. Kəskin ağrıları olan dövrdə gəlirlər. Ola bilər ki, vətəndaşın sənədində vergül işarəsi çatmır və yaxud nöqtə yerində deyilsə, onun işini kənara qoyub gözlətmək, şiddətli ağrılar çəkdiyi vaxtda problem yaratmaq olmaz. Həmçinin, parlamentdə çıxışım zamanı dərmanlarla bağlı məsələni də qeyd etdim. Məsələn, paytaxtın hər hansı bir rayonunda yaşayan 300 min insan dövlətin verdiyi dərmanları bir poliklinikadan almalıdır. Həmin şəxslər poliklinikada qeydiyyatdan keçib. Nə üçün yaşadığı əraziyə yaxın olan poliklinikadan dərmanları almasın? Bunların hamısını bir poliklinikada verməyin nə mənası var? Siyahı verilə bilər ki, vətəndaşlar hansı apteklərdən həmin dərmanları götürsünlər. Paytaxtda 10 minlərlə aptek var. Regionlarda da yetərincə aptek işləyir. İnsanlar sənədini göstərərək apteklərdən dərmanlarını ala bilər. Bunlar hamısı təşkilati məsələlərdir. Dövlət vətəndaşının sağlamlığını diqqətdə saxlayır, ildə iki dəfə pulsuz olaraq müayinədən keçməsini təşkil edir. Yeni xəstəxanalar tikilib, dünyanın aparıcı dövlətlərindən ən müasir avadanlıqlar alınaraq quraşdırılıb. İnsanların rahatlığının təmin olunmasına ehtiyac var.



***-Zaman-zaman müxtəlif nazirlik və komitələrdə struktur islahatları aparılır. Müxtəlif qurumlar birləşdirilir və ya ləğv olunur. Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasında TƏBİB ləğv olunub və onun tibb müəssisələri əmlakları ilə birlikdə Naxçıvan Səhiyyə Nazirliyinin tabeliyinə verilib. Bu baxımdan TƏBİB və Səhiyyə Nazirliyinin birləşdirilməsi gözlənilirmi?***

-Bu qurumlar yaranıb, yeniliklər edilib. Əgər təkmilləşməyə ehtiyac olacaqsa, bu, cənab Prezidentin səlahiyyətlərinə aid olan məsələdir. Bununla bağlı hökumət, dövlət hər hansısa qərar verəcək. Dövlət strukturlarında islahatlar gedir. Həmçinin, regional sahədə də islahatların aparılması ilə bağlı müxtəlif təkliflər irəli sürülür. Hesab edirəm ki, bunlar hamısı kompleks şəkildə öz həllini tapacaq.

***-Onkoloji xəstəliklərin müalicəsinin icbari tibbi sığortaya salınması həmişə qaldırılan məsələdir. Qarşıdakı dövrdə bu istiqamətdə hansı addımlar atıla bilər?***

-Bununla bağlı Milli Məclisdə bir neçə dəfə məsələ qaldırılıb. Son vaxtlar geniş yayılmış xəstəliklərdən biridir. Bu xəstəliyin müalicəsi həddindən çox vəsait tələb edir. Ona görə onkoloji xəstəliklərin müalicəsinin icbari tibbi sığortaya əlavə edilməsi çox vacibdir. Həmçinin, bir neçə dəfə parlamentdə bununla bağlı dinləmə keçirilib. Güman edirəm ki, büdcə layihəsində yenidən bu məsələyə toxunulacaq.

***Anar Kəlbiyev***

37_27 IYUl-QARA.qxd 10/2/2025 10:51 PM Page 8



# Özəl klinikalardan Teymur Musayevə “güc nümayişi”

## Onlar Səhiyyə Nazirliyinin nə yoxlamalarından qorxurlar, nə də xəbərdarlıqlarını saya salırlar - İki səbəb...

***Bu günlərdə məlum oldu ki, ”Atlas Medical Center”də Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi tərəfindən plandankənar yoxlama aparılıb. “Qaynarinfo” yazıb ki, vətəndaşın şikayəti əsasında Şah İsmayıl Xətai prospekti, 37B ünvanında yerləşən ”Atlas Medikal” tibb mərkəzində yoxlama həyata keçirilib.***

Belə ki, F.S. adlı şəxs ”Atlas Medikal” tibb mərkəzində uroloq-androloq vəzifəsində çalışmış Soltanova soyadlı həkimə müraciət edib. Xəstə iddia edib ki, həmin həkimin yazdığı dərman müalicəsi ona mənfi təsir göstərib.

Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi tərəfindən sözügedən şikayət əsasında ”Atlas Medical Center”də aparılan yoxlama zamanı pozuntular aşkarlanıb. Həmçinin həkimin klinikada ixtisasına uyğun olmayan ”uroloji” ixtisas üzrə fəaliyyət göstəridiyi müəyyən olunub. Eyni zamanda sertifikatsız özəl tibbi praktiki fəaliyyətlə məşğul olma faktı aşkarlanıb.

Məhkəmənin qərarı ilə ”Atlas Medical Center” tibb mərkəzinin rəhbəri İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətanı törətməkdə təqsirli bilinərək 6.000 manat məbləğində cərimə edilib.

Qeyd edək ki, nizamnamə kapitalı 10 manat olan ”Atlas Medical Center” Məhdud Məsuliyyətli Cəmiyyətinin qanuni təmsilçisi Əliyeva Əsli Əkbər qızıdır. Hazırda klinikanın İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə 165137.08 AZN vergi borcu var. MMC-yə operativ vergi nəzarəti üzrə - Əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması vəziyyəti haqqında AKT-a əsasən, əvvəlcə 1000, sonra 3000 manat maliyyə sanksiyası tətbiq edilib.

Qeyd edək ki, son zamanlar bəzi özəl klinikalarda bir sıra həkimlərin öz ixtisaslarına aid olmayan fəaliyyətlərlə və hətta sertifikatsız özəl tibbi praktik xidmətlərlə məşğul olduğu yönündə şikayətlər artıb. Belə şikayətlərdən sonra isə Səhiyyə Nazirliyi bir neçə dəfə klinikalara xəbərdarlıq edib, qanunvericiliyin müvafiq tələblərini pozacaqları təqdirdə onlar barəsində ölçü götürüləcəyini bildirib. Lakin az qala elə bir həftə yoxdur ki, hansısa özəl tibb müəssisəsində eynilə “Atlas Medical Center”dəkinə bənzər nöqsanlar aşkarlanmasın. Uzağa getməyək, bir neçə gün öncə Bakı şəhəri Səbail Rayon Məhkəməsinin “Qaragözova” MMC-yə məxsus klinika barəsində qərar çıxardığı barədə məlumat yayıldı. Həmin məlumatda deyilirdi ki, klinikada sertifikasiyadan keçməyən həkim-stomatoloqun və tibbi təhsili olmayan şəxslərin diş texniki kimi işləməsi faktı təsdiqlənib (modern.az). Araşdırmada məlum olub ki, həkim Hikmət Tahirovun sertifikasiya şəhadətnaməsi 2025-ci ilin iyulunda bitib, sentyabrda yenidən imtahanda iştirak etsə də, uğursuz nəticə göstərib. Bununla belə, o, klinikada həkim yanında əyləşərkən qeyri-rəsmi fəaliyyətlə bağlı şübhələr yaranıb. Bundan başqa, ali və ya orta ixtisas tibbi təhsili olmayan şəxslər “diş texniki” vəzifəsinə götürülüb.

Klinikanın direktoru isə məhkəmədə bildirib ki, həmin vaxt Hikmət Tahirov faktiki işləməyib, mülki geyimdə həkimin yanında oturub. Onun sözlərinə görə, texniki köməkçilər yalnız qəliblərin yuyulması və gips qarışdırılması kimi sadə işlər görüb, tibbi fəaliyyətlə məşğul olmayıblar. Məhkəmə isə təqdim olunan sənədləri və izahatları qiymətləndirərək, qanunvericiliyin pozulduğunu təsdiqləyib. Nəticədə MMC İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsinə əsasən 6000 manat cərimələnib.

Və yaxud bir müddət əvvəl Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) ”Laser Beauty Estetik Klinikası” MMC-də yoxlama aparmış və ortaya ciddi nöqsanlar çıxarmışdı. Məlum olmuşdu ki, stomatoloji otaqda cərrahi prosedur həyata keçirilib. Belə ki, klinikada ”cərrahi-stomatologiya” və ”diş texniki” işləri üçün icazə olmadan bu fəaliyyətin aparıldığı aşkarlanıb. AEM-in cavabına görə, klinikada qanunsuz olaraq cərrahi stomatoloji alətlər və avadanlıqlar tapılıb, həmçinin həkimlər və diş texnikinin sənədləri də uyğun olmayıb.

Belə nümunələrin sayını yetərincə artırmaq olar. Lakin buna ehtiyac görmür və birbaşa suala keçirik: Teymur Musayevin rəhbərlik etdiyi Səhiyyə Nazirliyinin xəbərdarlıqlarına və yoxlamalarına baxmayaraq özəl klinikalarda bəlli qanunazidd fəaliyyətlərin kökünü niyə kəsmək olmur? Maraqlı sualdır, lakin cavab birmənalı deyil, ortada müxtəlif səbəblər var. Bəzi hallarda özəl klinikalar özlərinin güclü himayədarlarına arxalanır (bir sıra klinikaların arxasında indiki və keçmiş iri məmurların, deputatların dayandığını bilməyən yoxdur) və Səhiyyə Nazirliyinin onsuz da onlara diş keçirə bilməyəcəyini düşünərək öz bildikləri kimi davranmağa davam edirlər. Bəzi hallarda nazirliklə onsuz da hər hansı şəkildə dil tapacaqların onun təftişlərinə, xəbərdarlıqlarına qeyri-ciddi yanaşırlar. Nəticədə özəl klinikaların fəaliyyətindəki bənzər nöqsanlar dayanmadan təkrarlanır.

Və istər-istəməz insan özözündən soruşur: Səhiyyə Nazirliyinin rəhbərliyi qanunvericiliyin tələblərini vecinə almayan bəzi özəl klinikaların elə nazirliyi də saya salmamasından, doğrudanmı narahat deyil?!





# Gömrük Komitəsinin iki əməkdaşı həbs edildi

***Qaçaqmalçılıq və digər cinayətlərin törədilməsində iştirak etmiş Dövlət Gömrük Komitəsinin Biləsuvar Gömrük İdarəsinin əməkdaşları və digər şəxslərin qanunsuz əməlləri ilə bağlı həmin qurumda başlanmış cinayət işinin ibtidai istintaqı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində davam etdirilir.***

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Baş Prokurorluğu və Dövlət Gömrük Komitəsi birgə məlumat yayıb.

Bildirilib ki, istintaqla Dövlət Gömrük Komitəsinin Biləsuvar Gömrük İdarəsinin 1-ci şöbəsinin inspektoru Vüsal Hüseynov və həmin şöbəyə təhkim olunmuş “Azərterminalkompleks” Birliyinin instruktor-kinoloqu Asif Hacımuradovun Etibar Hatəmli və İran İslam Respublikasının vətəndaşı Jafar Rezeyan ilə qabaqcadan əlbir olaraq öz qulluq mövqelərindən istifadə etməklə aralarındakı razılaşmaya uyğun sonuncunun İİR-də əldə etdiyi ümumilikdə 400 min manat dəyərində dövlət qeydiyyatından keçməyən, o cümlədən tərkibində güclü təsir edən və psixotrop maddələr olan dərman vasitələrini və aksiz markasız tütün məmulatlarını gömrük nəzarətindən kənar keçirib Azərbaycan Respublikası ərazisində aidiyyəti şəxslərə təhvil verilməsini təmin etmələrinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış ilkin sübutlar əsasında Vüsal Hüseynov, Asif Hacımuradov, Jafar Rezeyan və Etibar Hatəmliyə müvafiq olaraq Cinayət Məcəlləsinin 200-1.2.2, 200-1.2.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsi), 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda qaçaqmalçılıq), 213-1.2.1, 213-1.2.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda aksiz markası ilə markalanmalı olan malları belə marka olmadan idxal etmə), 234.4.1, 234.4.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda psixotrop maddələrin qanunsuz dövriyyəsi), 240.3.2 (külli miqdarda güclü təsir edən maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan edilib.

İstintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Vüsal Hüseynov, Asif Hacımuradov və Etibar Hatəmli barəsində məhkəmənin qərarı ilə həbs, Jafar Rezeyan barəsində isə istintaq orqanının qərarı ilə həbslə bağlı olmayan digər qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

37_27 IYUl-QARA.qxd 10/2/2025 10:51 PM Page 9





# "QHT işi" üzrə ittiham olunanların məhkəməsi başladı

***"QHT işi" üzrə ittiham olunan şəxslərdən bəzilərinin məhkəməsi başlayır.***

"Unikal" xəbər verir ki, cinayət işi üzrə bir neçə nəfər barəsində ibtidai istintaq yekunlaşıb.

Bəşir Süleymanlı, Qalib Bayramov (Qalib Toğrul) və Nərgiz Muxtarova barəsində başlanan cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Nərgiz Muxtarovanın cinayət işi hakim Leyla Əsgərova-Məmmədovanın icraatına verilib. Hazırlıq iclası oktyabrın 13-nə təyin edilib.

İbtidai istintaq zamanı ölkədə olmayan Nərgiz Muxtarova barəsində qiyabi həbs qətimkan tədbiri seçilib.

Bəşir Süleymanlı və Qalib Bayramovla bağlı işlər hələlik icraata verilməyib.

Xatırladaq ki, Azərbaycanda fəaliyyət göstərən bir sıra qeyri - hökumət təşkilatları ilə bağlı Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin 192.2.2, 213.1, 308.2 və digər maddələri ilə cinayət işi başlanıb, ibtidai istintaq aparılır.

Cinayət işi üzrə bir sıra qeyri-hökumət təşkilatları, onların rəhbərləri, həmçinin, xarici qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin fəaliyyətlərində qanun pozuntuları araşdırılır.

"İştirak Evi " MMC-nin təsisçisi və direktoru Məmməd Alpay (Məmmədzadə), "Benefisiar: Hüquqi Yardım Mərkəzi və Vətəndaş Hüquqları İnstitutunun rəhbəri Bəşir Süleymanlı və Sosial Hüquqlar Mərkəzinin rəhbəri Sübhan Həsənli Cinayət Məcəlləsinin 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 308.2 (ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərini sui-istifadə etmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb ediliblər.

Məmməd Alpay (Məmmədzadə) və Bəşir Süleymanlı barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Sübhan Həsənli istintaqdan yayındığı üçün barəsində axtarış elan edilib.

"Hüquq və İnkişaf" İctimai Birliyinin rəhbəri Hafiz Həsənov Baş Prokurorluğun İstintaq İdarəsində yerli və beynəlxalq qeyri-hökumət təşkilatları (QHT) haqqında cinayət işi üzrə təqsirləndirilən şəxs kimi tanınıb və onun barəsində məhkəmənin qərarı ilə ev dustaqlığı qətimkan tədbiri seçilib.

Daha sonra cinayət işi üzrə Gəncə Regional İcma Mərkəzinin rəhbəri Asəf Əhmədov, sosial işçi - hüquq müdafiəçisi Zamin Zəki və Əhməd Abbas oğlu Məmmədzadə həbs edilib. (Mənbə APA)

# Toy oliqarxlarından misli görünməmiş bahalaşma

## Qiymətlər kəllə-çarxda, keyfiyyət aşağı, xidmət daha betər... - Şadlıq evlərindəki soyğunun pərdəarxası!

***Şadlıq evlərində qiymətlər bahalaşmağa davam edir. Artıq 40 və 40 manatdan aşağı menyuya demək olar rast gəlinmir, standart menyular 45-60 manat arasında dəyişir. Bu, sözügedən obyektlərdə aparılan müşahidələr nəticəsində məlum olub.***

Lakin bəhs etdiyimiz bahalaşma müqabilində nə yeməklərin və içkilərin keyfiyyətində dəyişiklik var, nə də xidmətdə. Belə aydınlaşır ki, şadlıq evlərində artıq soyğun kimi qiymətləndirə biləcəyimiz qiymət artımının yeganə qazananı onların sahibləridir - yəni toy oliqarxları!

Uzağa getməyək, cəmi bir neçə ay əvvəl - martda Nizami rayonu, Babək edirlər. Toy sahibinə isə bu barədə bir qayda olaraq əvvəlcədən məlumat verilmir.

Digər tərəfdən şadlıq saraylarında verilən alkoqollu və alkoqolsuz içkilərin də daha çox el arasında "podval" adlandırılan kiçik (və gizli!) sexlərdə hazırlandığı barədə qənaət formalaşıb. Hətta bəzi toy oliqarxlarının özlərinin bu cür sexlərinin olduğu kimsəyə sirr deyil. Yenə faktlara müraciət edək: AQTA bir müddət əvvəl "Qızıl Tac" şadlıq sarayında saxtalaşdırma yolu ilə spirtli içkilərin istehsal olunduğunu aşkarlamışdı. Belə ki, daxil olmuş məlumat əsasında Bakı şəhəri, Nəsimi rayonu, 20 yanvar küçəsi 15A ünvanında fəaliyyət göstərən Fiziki tə at-eşşək ətlərinin restoran və şadlıq evlərinə, kolbasa sexlərinə çatdırıldığı barədə dəfələrlə xəbərlər yayılıb, iddialar irəli sürülüb. Məlum məsələdir ki, tikəkababdan fərqli olaraq, lüləkababın tərkibinə hansı ətin vurulduğunu müəyyənləşdirmək çətindir. Bu baxımdan lüləkabab mənşəyi məlum olmayan ətdən də hazırlana bilər... Əlbəttə, biz bütün şadlıq saraylarında məhz belə olduğunu iddia etmirik!

Lakin toy oliqarxları da öz-özlərindən soruşmalıdırlar: nə üçün insanlar ən dəbdəbəli toyxanalarda verilən yeməklərin, içkilərin keyfiyyətinə belə, şübhəylə yanaşırlar? Və nə üçün şadlıq saraylarının sahibləri həmin şübhələri aradan qaldırmaq üçün key-



prospekti, 76 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Eldar Ağa Zəki oğlu Dadaşova məxsus "Sərin" şadlıq evində Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları yoxlama keçirmişdilər. Qurumdan bu barədə yayılan məlumatda bildirilirdi ki, baxış zamanı obyektdə sanitar-texniki və sanitar-gigiyenik tələblərin pozulduğu, temperatur rejiminə əməl edilmədiyi, həmçinin mənşəyi məlum olmayan heyvan mənşəli məhsulların istehlaka təqdim edildiyi aşkarlanmışdı.

Əslində həmin xəbər kimsəni təəccübləndirmədi! Çünki şadlıq evlərindəki ət yeməklərinin, kolbasaların keyfiyyəti çoxdan müzakirə və mübahisə predmetidir. Toyxanaların çoxunun daha çox Monqolustan və Hindistandan idxal olunan ucuz ətə üstünlük verdiyini bilməyən varmı? Məsələn, Monqolustan ətinin topdan satış qiyməti 11-12 manatdır. Həmin ətdən dönər məkanları ilə yanaşı, şadlıq sarayları, restoranlar gen-bol istifadə şəxs Şirinov Vüsal Telman oğluna məxsus "Qızıl Tac" şadlıq sarayında plandankənar yoxlama həyata keçirilmişdi. Yoxlama zamanı şənlik mərasimində istifadə üçün nəzərdə tutulmuş aşkar saxtalaşdırılma əlamətləri olan 3 ədəd 1 litrlik, 10 ədəd 0,7 litrlik "Organic Line" əmtəə nişanlı və 1 ədəd 0,7 litrlik "Mınskc" əmtəə nişanlı alkoqollu içkiləri üzə çıxmışdı. Araşdırma zamanı qanunsuz olaraq saxta spirtli içkilərin istehsalında araq butulkalarından təkrar istifadə olunmaqla, həmçinin başlıq hissələrinin kustar üsulla hazırlanaraq bərkidildiyi, eyni zamanda malların orijinalından kəskin fərqləndiyi müəyyənləşdirilmişdi.

Bundan başqa, uzun illərin müşahidələri göstərir ki, şadlıq evlərindəki toylara çağırılan qonaqlar masaya düzülən kolbasa çeşidlərinə əl uzatmır, lüləkababa şübhə ilə yanaşır, onu yeməyə tərəddüd edirlər. Bu da səbəbsiz deyil. Ölkə mediasında yayılan xəbərlərdə gizli yolla istehsal olunan ölmüş heyvanların, eləcə də xəs-

fiyyəti yüksəltmək üçün konkret addımlar atmaqdansa, ancaq qiyməti yüksəltməyin hayındadırlar?!

Hansısa toy sahibi izah edə bilərmi: bir insan bir toyda, cəmi 3-4 saata 50-60 manatlıq nə yeyə bilər axı? Bu necə mümkündür? Elə isə şadlıq saraylarının artıq sərhəd tanımayan bahalaşmalarının qarşısını almaq zamanı yetişməyibmi? Ötən ilin sentyabrı ilə müqayisədə menyularının qiymətini ölü yerdən 2-3 dəfə artıran toyxanalar var. Bu bir ildə vətəndaşın gəlirləri, ölkədəki maaşlar, təqaüdlər o qədər artmadığı halda toy oliqarxları hansı məntiqlə az qala iki-üç ayda bir menyuların qiymətlərinə əl gəzdirirlər, özü də ancaq özlərinə sərf edən şəkildə?!

Başa düşürük, şadlıq saraylarının hər birinin arxasında hansısa gözgörünməz əl dayanır, həmin "əl(lər)" onları aidiyyatı qurumların obyektiv və effektiv təftişlərindən qoruyurlar, bu da toyxana sahiblərində arxayınlıq yaradır, onlara "toxunulmazlıq" statusu verir, lakin sözügedən məsələdə getdikcə anormal şəkil alan xaosu, özbaşınalığı dayandırmağın zamanı yetişməyibmi? Kimlərsə "qaz vurub qazan dolduracaq" deyə, vətəndaşın göz görə-görə soyulmasına, üstəlik də, ölkənin qida təhlükəsizliyini təhdid edəcək başıpozuqluğa necə laqeyd yanaşmaq, səssiz qalmaq olar?!

Əlbəttə, bugünkü toylarımızın xeyli dərəcədə aşağı düşmüş estetik səviyyəsində, əndazədən çıxan, israfçılıqdan, görməmişlikdən başqa heç nə olmayan zahiri təmtərağında adi vətəndaşların da məsuliyyəti az deyil. Lakin toyxana sahiblərinin də birbaşa borcudur ki, qazandıqları böyük pulların əvəzində yaxşı xidmət göstərsinlər, yüksək keyfiyyətli məhsullara üstünlük versinlər. Toylarda ölkənin gələcəyi olacaq yeni ailələrin təməli qoyulur, lakin incə bir nüans diqqətdən qaçır: saxta, aşağı keyfiyyətli yeməklər, içkilər səbəbindən genefondumuz zəhərlənir, zədələnir!

***Toğrul Əliyev***

# Həbsdəki sabiq oliqarxın qaranlıq “özünəbəraət”i...

## Həftənin sualı: keçmiş bulvar rəhbəri heç bir ittihamla razılaşmır, bəs onda 10 milyonluq əmlaklar hansı pullarla alınıb?

***Yola salmaqda olduğumuz həftənin ən maraqlı xəbərlərindən biri Dənizkənarı Bulvar İdarəsinin sabiq sədri İlqar Mustafayevin 12 milyonluq yeyinti ittihamından danışması oldu. Bakı Ağır Cinayətlər Məhkəməsinə Kürdəxanı təcridxanasında yazdığı hazır çıxışla gələn keçmiş bulvar rəhbəri özünə qarşı ittihamların heç birini qəbul etməyib.***

Məsələn, o, Hesablama Palatasına irad tutub: “Palata öz aktında yazır ki, Bakı Bulvar İdarəsi “Azərsu” ASC-dən suvarma və istifadə üçün su almaq əvəzinə dəniz suyunu duzsuzlaşdıraraq istifadə edə bilərdi. Bununla da 800 min manat qənaət etmiş olardıq. Axı bu, absurddur”.



Mustafayevin çıxışından başqa bir sitat: “İstintaq belə qənaətə gəlib ki, kassirlər attraksion və obyektlərdən yığılan pulları konkret işçilərə veriblər və həmin pullar da mənimsənilib. Amma bu epizod üzrə mənim əleyhimə ifadə verən şahid yoxdur. Hansı günahıma görə mənimlə belə davranırlar?”

Bundan başqa, Dənizkənarı Bulvar İdarəsinin sabiq sədri “Başqa bir epizodda yazılıb ki, “Maraşpark” dondurma köşklərinin sahibi İsrafil Bascılın 4 ildə 736 min 500 manat pul ödədiyi, popkorn köşkləri ilə bağlı 300 minlik yeyintiyə yol verdiyi, Bulvar İdarəsinin istixanası ola-ola “Girasol” MMC-dən 175 672 manat dəyərində gül almaq adı ilə pulları mənimsədiyi barədə epizodlar üzrə də danışıb və həmin ittihamları da qəbul etməyib. O, mənimsəmə epizodlarından əlavə, vergidən yayınma ittihamı ilə də razılaşmayıb.

Məhkəmə oktyabrın 20-si qaldığı yerdən davam edəcək.

Xatırladaq ki, bu ilin yayında İlqar Mustafayevin böyük “əmlak imperiyası”na sahib olduğu məlum olub. 12 milyonluq korrupsiya ittihamı ilə həbs edilən eks-məmurun paytaxtın bahalı və prestijli ərazilərində yerləşən mülkləri üzərinə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin təqdimatı ilə həbs qoyulduğu aydınlaşmışdı. Bildirilmişdi ki, bu qərar dövlətə dəymiş ziyanın ödənilməsinin təminatı məqsədilə verilib.

Ümumi dəyəri 10 milyon manat qiymətləndirilən sözügedən varidatın siyahısı “göz qamaşdırırdı”. Belə ki, daşınmaz əmlaklar arasında Bakının mərkəzi küçələrində yerləşən mənzillər, böyük obyektlər və lüks bağ evləri yer alırdı:

Xətai rayonunda - Ağ Şəhərdə, Xudu Məmmədov və Nəcəfqulu Rəfiyev küçələrində 7 lüks mənzil;

elə həmin rayonda, Ağ Şəhərdə Mərkəzi Bulvar küçəsində yerləşən, sahəsi 715,3 m? olan böyük obyekt;

Səbail rayonunda - Üzeyir Hacıbəyli və Neftçi Qurban Abbasov küçələrində 3 mənzil;

Xəzər rayonu, Şüvələn qəsəbəsi - biri 875,6 m? sahəyə malik olmaqla 2 villa tipli bağ evi;

Pirallahı rayonunda - bağ evi;

Xəzər və Qusar rayonlarında - torpaq sahələri.

Qeyd edək ki, bu əmlakların hamısı artıq dövlət nəzarətindədir. Onların gələcək hüquqi taleyi Bakı Ağır Cinayətlər Məhkəməsində həll olunacaq.

Əlbəttə, İlqar Mustafayevin özünə bəraət qazandırmaq cəhdləri başadüşüləndir, məşhur bir filmdə deyildiyi kimi, istənilən həbsxana özünü günahsız sayan məhbuslarla doludur. Lakin keçmiş bulvar rəisi bütün ittihamları rədd edərkən mühüm bir sualı cavablandırmaq məcburiyyətindədir. Həmin suala qayıdacağıq, amma öncə onu xatırladaq ki, çoxmilyonluq varidatının siyahısı ortaya çıxınca ictimaiyyətdə böyük əks-səda doğurmuş və başqa suallar yaratmışdı.

Birincisi, Dənizkənarı Bulvar İdarəsi kimi elə də böyük olmayan bir qurumun başındakı şəxs həmin vəzifədə olduğu cəmi 8 ildə bu qədər sərvəti necə əldə edə bilərdi? Bu da azmış kimi, bir orta ranqlı məmurun 12 milyon manatı cəmi 2 ildə mənimsəyə bilməsi üçün o, hansı xüsusi bacarığın, “istedadın” sahibi olmalıdır?

İkincisi, Dənizkənarı Bulvar İdarəsi kimi elə də böyük olmayan bir qurumun başındakı şəxs həmin vəzifədə olduğu cəmi 8 ildə oliqarxa çevrilməyi, çoxmilyonluq sərvət sahibi olmağı bacarırsa, kim bilir, daha yüksək vəzifəli şəxslər hansı ağlasığmaz varidatın sahibləridir?

İndi isə bu iki suala yuxarıda anonsunu verdiyimiz üçüncü sualı da əlavə etmək mümkündür: bir halda ki, keçmiş bulvar rəhbəri ona qarşı irəli sürülən mənimsəmə ittihamlarının heç biri ilə razılaşmır, onların hamısını rədd edir, elə isə ümumi dəyəri 10 milyon manat qiymətləndirilən daşınmaz əmlakları hansı pullarla aldığını açıqlaya bilərmi? Üstəlik, unutmayaq ki, həmin əmlaklar hələ sadəcə məlum olanlardır...

Sonda onu da deyək ki, İlqar Mustafayev köməkçisi Rəşad Bədəlov və “Girasol” MMC-nin direktoru Fuad Babayevlə birlikdə mühakimə olunur. Sonuncu ikisi azadlıqdadır. Cinayət işi Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən istintaq olunub. Verilmiş ittihamlar sübuta yetirilsə, müttəhimləri 10 ildən çox həbs cəzası gözləyir.

***Sənan Mirzə***




# Səfərbərlik Xidmətinin 9 əməkdaşı işdən çıxarılıb

***Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 2023-cü ilin may ayından etibarən xidməti fəaliyyətində şəffaflığın artırılması, korrupsiyaya şərait yaradan amillərin aradan qaldırılması və vətəndaş məmnunluğunun yüksəldilməsi istiqamətində sistemli tədbirlər həyata keçirmiş, bu dövr ərzində normativ-hüquqi bazanın təkmilləşdirilməsi və nəzarət mexanizmlərinin gücləndirilməsi sahəsində kompleks işlər görülmüşdür.***

Dövlət Xidmətindən ”Unikal”a bildirilib ki, əməkdaşların qeyri-qanuni hərəkətləri və vəzifə səlahiyyətlərindən sui-istifadə halları üzrə aparılmış xidməti araşdırmalar nəticəsində 2023-cü ildə 78, ötən ildə 249, 2025-ci ilin müvafiq dövründə 143 əməkdaş (onlardan 54-ü rəhbər heyət) barəsində intizam tənbehi və təşkilati-ştat tədbirləri görülmüş, o cümlədən cari ildə 9 əməkdaş mənfi əsaslarla ehtiyata buraxılmış və ya əmək müqaviləsinə xitam verilmişdir. 2023-cü ildə 15 fakt üzrə 22, 2024-cü ildə 51 fakt üzrə 95, cari ildə isə 35 fakt üzrə 75 nəfər barəsində toplanmış materiallar prosessual qərar qəbul edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmişdir.

“Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 06.09.2023-cü il tarixlin 2317 nömrəli Fərmanının icrası çərçivəsində müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı dörd yararlılıq kateqoriyası üzrə yekun tibbi müayinəsi 01.07.2024-cü il tarixindən etibarən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən həyata keçirilir. Prosesdə iştirak edən aidiyyəti qurumlar arasında məlumat mübadiləsinin elektronlaşdırılması və bu sahədə aparılan optimallaşdırma tədbirləri korrupsiya risklərinin azaldılmasına, idarəetmədə operativliyin və obyektivliyin təmin olunmasına, ümumilikdə isə fəaliyyətin şəffaflığının artırılmasına müsbət təsir göstərməkdədir.

Vətəndaşlarla əyani təmasın minimuma endirilməsi, operativliyin və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə müasir texnologiyaların imkanlarından maksimum yararlanmaq və gələcəkdə göstərilən bütün xidmətlərin elektron qaydada həyata keçirilməsi planlaşdırılır. Hazırda “Müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət verilməsi”, “Müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilmə”, “Müddətli həqiqi hərbi xidmətə müvəqqəti çağırılmamağa dair”, “Həqiqi hərbi xidmət keçmə haqqında”, “Müddətli həqiqi hərbi xidmət barədə” və “Hərbi qeydiyyat haqqında” arayışlar “MyGov” mobil tətbiqi üzərindən vətəndaşlara təqdim olunur.

Vətəndaşların korrupsiya və digər qanunsuz hallarla qarşılaşdığı təqdirdə 9100 Çağrı mərkəzinə və ya info@seferberlik.gov.az elektron poçt ünvanına müraciət etmələri, həmçinin elektron xidmətlərdən yararlanmaq və “MyGov” platformasına qoşulmaq üçün elektron kabinetlərin yaradılması tövsiyə olunur.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti fəaliyyətində şəffaflıq, obyektivlik və ictimai etimadın gücləndirilməsi prinsiplərinə əsaslanaraq korrupsiyaya qarşı mübarizəni bundan sonra da ardıcıl şəkildə davam etdirəcəkdir.

37_27 IYUl-QARA.qxd 10/2/2025 10:52 PM Page 11





# Bu il Türkiyənin Səlcuq Universitetinin 50 yaşı tamam olur

***"Unikal" xəbər verir ki, dövlət universiteti 11 aprel 1975-ci ildə qurulub.***

Səlcuq Universiteti Türkiyənin İç Anadolu Bölgəsində, Konya şəhərindədir.

Prof.Dr.Hüseyin Yılmaz prezident Rəcəb Tayyib Ərdoğanın imzası ilə 26 iyun 2024-cü il tarixindən etibarən Səlcuq Universitetinin yeni rektoru təyin olunub. Maraqlısı budur ki, rektor universitetin yarandığı - 1975-ci ildə elə Konyada anadan olub.

Universitet 23 fakültə, 1 dövlət konservatoriyası, 6 kollec, 22 peşə məktəbi, 6 institut, 25 tədqiqat və tətbiq mərkəzi, 70 000-ə qədər tələbəsi və Türkiyənin üçüncü ən böyük kampusuna sahib olması ilə ölkənin ən yaxşı universitetləri arasında yer alır.

Dünyanın ən hörmətli universitet reytinq təşkilatlarından biri olan "Times Higher Education (THE) Impact Rankings 2025"ə əsasən, universitet dünya üzrə 2526 universitet arasında 101-200-cü yerlər arasında qərarlaşaraq mühüm uğur qazanıb. "Keyfiyyətli Təhsil" kateqoriyasında Türkiyənin 121 universiteti arasında 5-ci, dünya miqyasında isə 92-ci yerdə qərarlaşıb.

Qeyd edək ki, universitetdə Azərbaycan Respublikası və Cənubi Azərbaycandan da tələbələr təhsil alır.

***Ağarza Elçinoğlu***

# ADY "TransLogistica Kazakhstan 2025"də




***"Azərbaycan Dəmir Yolları" QSC (ADY) 30 sentyabr - 2 oktyabr tarixlərində Qazaxıstanın Almatı şəhərində keçirilən Mərkəzi Asiyanın ən iri nəqliyyat-logistika tədbiri - "TransLogistica Kazakhstan 2025" sərgisində iştirak edir.***

"Unikal" xəbər verir ki, 25-dən çox ölkədən 500-dən artıq şirkətin qoşulduğu sərgidə "ADY Express" MMC-nin stendinə böyük maraq göstərilib. Stendi Qazaxıstanın nəqliyyat nazirinin müavini Maksat Kaliakparov da ziyarət edib. Ziyarətçilərə Azərbaycanın tranzit potensialı, əlverişli coğrafi mövqeyi və müasir dəmir yolu infrastrukturunun inkişafı barədə geniş məlumat verilib. Bildirilib ki, Azərbaycan Avropa ilə Asiya arasında yükdaşımaların təmin olunmasında strateji rol oynayır. Ölkə ərazisindən keçən əsas beynəlxalq marşrutlar sayəsində həmçinin Bakı Beynəlxalq Dəniz Limanından istifadə olunmaqla multimodal daşımalar həyata keçirilir.

ADY nümayəndələri sərgi çərçivəsində beynəlxalq marşrutların perspektivlərini müzakirə etmək və Azərbaycanın Avrasiyanın əsas tranzit qovşağı kimi imkanlarını təqdim etmək məqsədilə bir sıra görüşlər keçirib, danışıqlar aparıblar.

ADY yüklərin etibarlı və təhlükəsiz daşınmasını təmin edir, aktiv şəkildə rəqəmsal texnologiyaları tətbiq edir və terminal imkanlarını genişləndirir. Bu isə tərəfdaşlara logistik prosesləri optimallaşdırmağa və tranzit vaxtını əhəmiyyətli dərəcədə qısaltmağa şərait yaradır.

# Lütvəli Babayevin adı hallanan 2 milyon manatlıq qalmaqalda böyük müəmma

## Sabiq icra başçısının oğlu təqsirkardır, yoxsa zərərçəkən? - İlginc təfərrüatlar

***Yola salmaq üzrə olduğumuz həftə 14 il icra başçısı işləmiş Lütvəli Babayev oğlunun zərərçəkmiş kimi tanındığı iş üzrə məhkəmədə ifadə verib. "Qafqazinfo"nun məlumatına görə, keçmiş məmur cinayət işində əsas şahidlərdən biridir.***

Cinayət hadisəsi ilə bağlı "Uniklinika"nın baş həkimi Aruz Əliyev və onun dostu Ehtiram Kərimov ittiham olunur. Onların hər ikisi həbsdədir. İstintaq materiallarında qeyd edilir ki, Aruz və Ehtiram tanışları Babəli Babazadəyə məxsus 2 milyon manat dəyərində əmlakı sataraq əldə edilən vəsaiti mənimsəyiblər. Onlar əvvəlcə külli miqdarda vergi borcu olan Babəlini Türkiyəyə göndərib etibarnamə alaraq evini və digər əmlakını satıblar. Təqsirləndirilən şəxslər isə bu ittihamı qəbul etmir, əksinə Babəlinin tüfeyli həyat sürdüyünü və ona vəziyyətdən çıxmaqda kömək etdiklərini bildirirlər.

Lütvəli Babayev bu işdə şahid olsa da, məhkəmədə daha çox zərərçəkmiş kimi danışıb. Onun sözlərinə görə, təqsirləndirilən şəxslər oğlunun etibarından istifadə ediblər. Xüsusilə də Aruz Babəlinin aldadılmasında əsas rol oynayıb. Onun cinayətə aid səs yazısını şəxsən özü yazaraq istintaqa təqdim edib: "Aruz mənim oğlumun həkimi olub, oradan münasibətləri yaranıb. Hətta Babəli onu xəstəxanaya işə düzəldib. Çörək verdiyi adamı bu günə qoymazlar axıq Oğlumun güvənindən sui-istifadə edib. Babəlini Türkiyəyə göndərəndən sonra əmlakını ələ keçiriblər. Sual verirəm, Aruz, mənim oğlumu Türkiyəyə niyə göndərirdin, hansı məqsədlə? Aruzun səs yazısını şəxsən mən yazıb istintaqa vermişəm. Həmin kaset məhkəmədə də var. Oğlumu aldadıb əmlakını ələ keçiriblər. Mən Aruzla düşmənlik etmirəm, sadəcə tələb edirəm ki, əmlakı qaytarsınlar".

Lütvəli Babayev oğluna nəzarət etməməsi ilə bağlı deyilən sözlərə isə "Yazırlar ki, oğlum uşaqdır, mənim də ondan xəbərim olmayıb. 100 il əvvəl Böyük Britaniyanın Baş nazirinin 25 yaşı var idi. Nə olsun ki? Babəli də böyük oğlandır", - deyə cavab verib.

L.Babayev bu işin ədalətli araşdırılması üçün məhkəməyə and verib: "Düzdür, din dövlətdən ayrıdır. Amma yenə də Qurani-Kərimin xətrinə ədalətli qərar çıxarmanızı xahiş edirəm". Müdafiə tərəfinin vəkili İlqar Rüstəmov isə Lütvəli Babayevin ifadəsinə etirazını bildirib. Vəkil onun şahid kimi deyil, zərərçəkmiş kimi davrandığını deyib: "Bu adam iş üçün əhəmiyyətli heç nə demir. 20 dəqiqəlik ifadəsində şahid kimi əhəmiyyət kəsb edən bir dənə də söz demədi. Britaniyanın Baş nazirindən girdi, qohumunun Türkmənistana ərə getməsinə qədər danışdı. Yarım saatdır biz buna qulaq asırıq. Bu, zərərçəkmiş yox, şahiddir. Ümumiyyətlə, bu şəxsin dindirilməsinə qarşı etiraz verəcəyik".

Hakim Mahirə Kərimova vəkilin etirazını nəzərə alaraq prosesin təxirə salınmasına qərar verib. Proses gələn dəfə Lütvəli Babayevin sorğu-sual edilməsi ilə davam edəcək.

Qeyd edək ki, Lütvəli Babayev 2005-2007-ci illərdə Mingəçevirin, 2007-2019-cu illərdə isə Zərdabın icra başçısı olub. Oğlu Babəli Babayev isə iş adamıdır.

B.Babazadənin zərərçəkən kimi tanındığı iş üzrə keçirilən məhkəmə iclasları zamanı xeyli suallar ortaya çıxıb. Nə o, nə də atası öz məhkəmə ifadələrində qarşı tərəfi çıxılmaz vəziyyətə salacaq dəlillər ortaya qoya bilməyiblər. Lütvəli Babayevin ümumi sözlərdən ibarət ifadəsindən öncə Babəli də məhkəmə çıxışında mətləbə dəxli olmayan fikirlər səsləndirmişdi. Məsələn, hazırkı yaşayışından gileylənmişdi: "Ailə qura bilmirəm, rüsvay olmuşam. Bütün həyatım məhv oldu". Qarşı tərəf isə sabiq icra başçısının oğluna belə reaksiya vermişdi: "Düz danış, kəfənini əyninə geyinib gəlmişdin. Səni pis vəziyyətdən çıxardıq. Sənə etdiklərim gözündən gəlsin. Tüfeyli kimi hotellərdə qalmışdın. Bir ildir, mən burada girovam".



Başqa bir məhkəmə iclasında isə təqsirləndirilənlərdən E.Kərimov B.Babazadəyə xitabla belə demişdi: "Yalan danışırsan! Sən mənim pulumla yeyib-içirdin. Türkiyədə "zaloq"da qalmışdın, səni mən xilas elədim. Vergi borcuna görə ölkəyə giriş-çıxışın bağlı idi, onu da mən aradan qaldırdım. İndi deyirsən "stop"un olmayıb. Bəs niyə qayıdıb əmlaklarını özün satmırdın? Çünki pulu ona-buna yedizdirmişdin".

Cinayət işini araşdıran hakim Mahirə Kərimova isə iclasların birində Babazadəyə maraqlı sual ünvanlamışdı. Hakim ondan külli miqdarda qiyməti olan əmlakları özgəsinə necə etibar etdiyini soruşmuşdu: "Sizin 2 milyon vergi borcunuz olub. Aruz da deyib ki, sən çıx get Türkiyəyə, mən həll edəcəyəm. Siz buna necə inandınız? Özü də ali təhsilli adamsınız. Vergi borcu elə bir şeydir ki, ancaq hüquqi qaydada həll edilə bilər. Bunu bilməli idiniz". Babəli Babazadənin cavabı ilginc olmuşdu: "Aruz ailə həkimimiz olub, hər şeyi onunla məsləhətləşmişəm". Qəribədir, vergi məsələlərini ailə həkimi ilə necə və niyə, hansı məntiqlə məsləhətləşəsən ki?!

Bir sözlə, Lütvəli Babayevin oğlunun zərərçəkən kimi tanındığı 2 milyon manatlıq iş üzrə xeyli mübhəm və müəmmalı məqamlar var. Belə görünür, növbəti məhkəmə iclaslarında biz daha maraqlı, təəccüblü detalların şahidi olacağıq.

***Sənan Mirzə***

37_27 IYUl-QARA.qxd 10/2/2025 10:53 PM Page 12



## 5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda ailələr dövlətin himayəsində

## Pərviz Əliyev: "Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyəti nəticəsində risk qrupuna aid ailələr aşkarlanaraq onlara baş çəkilir"

***Ailə cəmiyyətin əsas sütunlarından biri olduğundan, qurulan ailələrin təməlinin sağlam olması əsas şərtlərdəndir. Azərbaycan ailə modeli əsrlər boyu öz dəyərləri ilə ən nümunəvi sosial institutlardan biri olub. Hər bir insanın, hətta hər bir xalqın özünütəsdiqində və inkişafında ailənin rolu böyükdür. Ailə insanların bir-biri ilə qurduğu münasibətlərin ən qədim və unikal formalarından biridir.***



Ölkəmizdə ailələrin sağlam əsaslar üzərində qurulması üçün dövlətimiz tərəfindən məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirilir. Müvafiq qanunvericilik aktlarında edilən dəyişikliklər də bu tədbirlərdəndir. Belə ki, Ailə Məcəlləsinə edilən dəyişikliklər əsasında qızlar və oğlanlar üçün nigah yaşının 18-ə qaldırılması, nigahdan əvvəl gənclərin məcburi tibbi müayinədən keçməsi, ailə üzvlərinin sağlamlığına, xüsusilə də ana və uşaqların sağlamlığının mühafizəsinə, həmçinin gələcək nəsillərin sağlamlığına xidmət edən mühüm amildir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət ölkəmizdə ailələrin rifahının yaxşılaşdırılmasına, sosial müdafiəsinin gücləndirilməsinə, əhalinin məşğulluğunun təmin olunması və sağlamlığına yönəlib.

Dövlətimiz tərəfindən görülən bu işlər cəmiyyətin əsas sütunu olan ailələrin rifah halının gündən-günə daha da yaxşılaşdırılmasını təmin edir.

Amma ailə kiçik dövlət olduğundan, orada müəyyən problemlərin də olması qaçılmazdır. Elə budəfəki mövzumuz da, belə ailələrə göstərilən dövlət qayğısı ilə bağlıdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin Mərkəzlərlə iş sektorunun müdiri Pərviz Əliyevlə söhbətimiz də bu mövzuda oldu.

Onunla söhbətimizdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyətindən bəhs etdik.

O bildirib ki, Komitənin Uşaq və Ailələrə Dəstək Mərkəzləri 11 rayonda (Ağdam, Goranboy, Göygöl, Hacıqabul, İsmayıllı, Qəbələ, Saatlı, Sabirabad, Zaqatala, Zərdab, Bakı şəhərinin Xəzər rayonunda) fəaliyyət göstərir.

"Şüvəlan və Goranboy UADM-lər 2007-ci ildən, digər mərkəzlər 2010-cu ildən fəaliyyət göstərir.

Mərkəzlər tərəfindən maarifləndirmə, məlumatlandırma və xidmətlərə yönəltmə, qadın və uşaqlara psixoloji dəstək, hüquqi məlumatlandırma və məsləhətlərin təşkili, ailələrin, qadınların sosial dəstək layihələrinə cəlb edilməsi, müvafiq istiqamətlər üzrə təlim, treninq və seminarların təşkili, ailələrin psixososial qiymətləndirilməsi və qayğı planının tərtib edilməsi, valideyn bacarıqlarının artırılması, ailə qurmağa hazırlaşan və yeni ailə quran cütlüklər üçün psixoloji təlim proqramları, uşaq və yeniyetmələr üçün psixoloji treninqlər və s. həyata keçirilir".

### Ailə səfərləri

Onun sözlərinə görə, Mərkəz əməkdaşları tərəfindən müxtəlif növ zorakılıq halları ilə bağlı, eyni zamanda baxımsız vəziyyətə düşən, neqativ davranış formaları olan, hüquq pozuntusu törədən, təhsildən yayınan, himayə və qəyyumluğa verilən uşaqların ailələrinə, şəhid və müharibə iştirakçılarının ailələrinə, fövqəladə hallar, epidemiya və münaqişə nəticəsində zərərçəkən, əlilliyi olan şəxslərin ailələrinə səfərlər edilir:

"Səfərlərin məqsədi risk qrupuna daxil olan şəxslərin (ailələrin) aşkarlanması, problemlərin araşdırılması və həlli istiqamətində tədbirlərin görülməsidir.

Eyni zamanda ailədən-ailəyə aksiyası və sosial tərəfdaşlıq çərçivəsində mərkəzlər tərəfindən ehtiyacı olan ailələrə maddi yardımlar, əlilliyi olan şəxslər üçün xüsusi ləvazimatlar verilir. Cari ilin 1-ci yarımili ərzində 517 ailə səfəri həyata keçirilibdir".

### Maarifləndirmə tədbirlərinin səmərəsi

Müsahibimiz deyir ki, Mərkəzlər tərəfindən erkən evlilik, məişət zorakılığı hallarının qarşısının alınması, sağlam həyat tərzi, reproduktiv sağlamlıq, milli-mənəvi dəyərlər, vətənpərvərlik, insan hüquqlarının təbliği, ailənin qurulması və qorunması, ailə və uşaqların asudə vaxtının təşkili istiqamətində, həmçinin əlamətdar günlərlə bağlı müxtəlif tədbirlər keçirilir. Əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiyası və sosiallaşması üçün onlar valideynləri ilə birlikdə keçirilən tədbirlərə dəvət edilirlər. Cari ilin 1-ci yarımili ərzində 351 tədbir keçirilmiş, 15455 nəfər iştirakçı olub.

### Mərkəzlərin xidmətlərinə nələr aiddir?

P. Əliyev qeyd edib ki, Mərkəzlərin fəaliyyətinə Denver II testi - Uşaqların inkişafını daha yaxşı və yaxından izləmək üçün 0-6 yaşlı uşaqlara tətbiq edilən qiymətləndirmə testi, Protec metodikası ilə iş- Əlilliyə erkən müdaxilə proqramı, Autizm sindromlu uşaqlar üçün inkişaf etdirici məşğələlər, Psixoloji konsultasiya (ailə, qadın və uşaqlarla), Psixoloji treninq daxildir.

O, vurğulayıb ki, bu ilin 1-ci yarısı 302 nəfərlə 1109 məşğələ və konsultasiyalar keçirilibdir.

Müsahibimiz onu da qeyd edib ki, Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə görə, ailə cəmiyyətin əsas özəyi kimi dövlətin xüsusi himayəsindədir. Bizim ölkədə ailə siyasəti sahəsində qanunvericilik bazası yaradılıb. Eyni zamanda, ölkədə institutun müdafiəsi istiqamətində davamlı iş aparılır.

Unutmayaq ki, cəmiyyətin inkişafı həm də ailənin rifahından, ailədaxili sağlam mənəvi mühitdən, ailə münasibətlərinin yüksək əxlaqi dəyərlər əsasında təşkilindən asılıdır. Odur ki, Azərbaycanın ailə modeli dünyanın regional və qlobal təsirlərindən qorunmalıdır!

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



## Nümayəndələrimiz "Yeni İpək Yolu" forumunda iştirak edib

***Qazaxıstanın Almatı şəhərində "Yeni İpək Yolu" VII Beynəlxalq Nəqliyyat və Logistika Biznes Forumu keçirilib.***

"Unikal" xəbər verir ki, beynəlxalq tədbirdə Azərbaycan rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub. Beynəlxalq nəqliyyat əməkdaşlığının gücləndirilməsi, nəqliyyat dəhlizlərinin inkişafı və regional logistika potensialının reallaşdırılması forumun əsas müzakirə mövzuları olub.

Forum çərçivəsində "Nəqliyyat əlaqəliliyi və nəqliyyat dəhlizlərinin sinxronizasiyası" mövzusunda panel iclas, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin nəqliyyat nazirlərinin VIII iclası təşkil edilib. Həmçinin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TMTM) ölkələrinin nümayəndə heyəti rəhbərlərinin görüşü keçirilib.

Beynəlxalq tədbirdə bir sıra mühüm sənədlər imzalanıb. Buraya TMTM marşrutu üzrə dəmir yolu seqmentində mövcud "dar boğazlar"ın aradan qaldırılması məqsədilə tədbirlər planı, Transxəzər marşrutu üzrə nümayəndə heyətlərinin görüşünə dair protokol, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin nəqliyyat nazirlərinin VIII iclasının yekunları ilə bağlı kommünike daxildir.

## Elektromobil və hibrid avtomobillərin şarj məntəqələrində qanunsuz parklanma

***Bu dəfə sürücülər elə digər sürücülərdən narazılıq edirlər.***



"Unikal" Xəzər Tv-yə istinadən xəbər verir ki, kadrlar paytaxtın Nərimanov rayonunda çəkilib. Əliəşrəf Əlizadə küçəsində yerləşən şarj stansiyası elektromobil sürücüləri üçün əlçatan deyil. Bunun səbəbi isə orada dayanan digər avtomobillərdir.

Sürücülər qaydaları pozaraq, dayanma və durmanın qadağan edildiyi ərazidə avtomobilləri saxlayırlar. Ərazidə yaşayanların sözlərinə görə, bu tez-tez baş verdiyi üçün ciddi narazılığa səbəb olur.

Elektromobil və hibrid avtomobil sürücüləri deyirlər ki, bu, onlar üçün vaxt itkisidir. Onlar əraziyə nəzarətin gücləndirilməsini və qaydaları pozan şəxslərə qarşı tədbirlərin görülməsini istəyirlər.

Bakı Şəhər DYP İdarəsindən bildirilib ki, həmin ərazidə sürücüləri narahat edən məsələ aradan qaldırılıb. Nərimanov RPİ-nin DYP Şöbəsinin əməkdaşları dayanma və durma qaydalarını pozan sürücülər barəsində qanunamüvafiq tədbirlər görüblər.

37_27 IYUl-QARA.qxd 10/2/2025 10:53 PM Page 13



## Bağçalara növbəyə yazılma prosesi başlayır



***Məktəbəqədər təhsil müəssisələrinə növbəyə yazılma prosesinə başlanılır.***

Bu barədə "Unikal"a Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, 2025-2026-cı tədris ili üzrə saat 11:00-dan etibarən məktəbəqədər təhsil müəssisələrinə növbəyə yazılma prosesinə yenidən start verilir. Qəbul prosesi bq.edu.az portalı vasitəsi ilə elektron formada həyata keçirilir.

Nəzərinizə çatdırırıq ki, məktəbəqədər təhsil müəssisələrinə qəbul sistemində növbə yaradarkən bir uşaq üçün maksimum üç məktəbəqədər təhsil müəssisəsini seçmək mümkündür. Mövcud növbələrin boş yer olduğu halda sorğuya çevrilməsi prosesi minimum beş gündən sonra həyata keçiriləcək.

Qeyd edək ki, uşaqların məktəbəqədər təhsil müəssisələrində boş yerlərə qəbulu il boyu davam etdiriləcək.

## Dərnəgüldə evlər sökülür - Sakinlər ölçmə metodundan narazıdırlar




***Dərnəgüldə tikinti bazarının arxa hissəsindəki evlər sökülür.***

"Unikal" Xəzər TV-yə istinadla xəbər verir ki, sözügedən ərazi Şahmar Ələkbərov küçəsində yerləşir. Küçədəki evlərin bir çoxunda xüsusi işarələr var. Bu işarələr rayon icra hakimiyyəti tərəfindən, sahəsi ölçülən evlərin müəyyənləşdirilməsi məqsədilə çəkilib.

Sakinlər bildiriblər ki, hətta icra hakimiyyətinin nümayəndələri tərəfindən evlərin ölçülməsinə başlanılıb. Onlar evlərin daxildən ölçülməsini düzgün hesab etmirlər, çünki evlərin həcmləri kiçikdir və sadəcə daxildən ölçmə kifayət etmir.

Qeyd olunur ki, ərazidəki evlərin əksəriyyəti sənədsizdir. Mənzillərin sahəsi ölçülməsinə baxmayaraq, sakinlərə veriləcək kompensasiyalarla bağlı heç bir məlumat verilməyib.

## Dövlət xidmətinin əməkdaşı vəfat etdi



***İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin əməkdaşı, Bakı Dövlət Universitetinin müəllimi Arzu Məmmədov vəfat edib.***

"Unikal" xəbər verir ki, A.Məmmədov ötən gün 55 yaşında dünyasını dəyişib.

Mərhum həm də Qərbi Azərbaycan İcmasının Basarkeçər rayon Aşağı Şorca kənd icmasının sədri idi.

## Cinayətdə şübhəli bilinən 23 nəfər saxlanıldı



***Oktyabrın 1-də ölkə ərazisində qeydə alınan 31, əvvəlki dövrlərdən bağlı qalan 14 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 39, o cümlədən borclu şəxs qismində axtarışda olan 27 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 6, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 4 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 23 nəfər saxlanılıb.

# "Müstəqilliyimizin Hüquqi Zəmanəti-Konstitusiya və suverenlik ili"

***Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ölkəmizin hüquqi inkişafında mühüm mərhələ kimi qiymətləndirilir. Bu qərar hüquqi sistemin təkmilləşdirilməsi, vətəndaşların hüquqi biliklərinin artırılması və konstitusiya əsaslarının möhkəmləndirilməsi məqsədlərinə xidmət edir. Bu sərəncam dövlətçilik tariximizin daha da dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.***



Sərəncamda qeyd edilmişdir: "Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir". Torpaqlarımızın işğaldan azad edilməsi və suverenliyimizin tam təmin olunması nəticəsində Əsas Qanunda ehtiva edilən Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti də tam reallaşıb. Belə ki, Konstitusiyanın 11-ci maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Dövlət başçısı cənab İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti nəticəsində bu müddətdə təsbit edilən prinsiplər tam şəkildə təmin olunub.

44 günlük Vətən müharibəsindən sonrakı dövrdə də dövlətimiz siyasi-diplomatik müstəvidə ardıcıl olaraq yeni qələbələr əldə etməkdə davam etdi. Dövlətimizin İkinci Qarabağ müharibəsində inamlı Qələbə qazanmasına baxmayaraq, Ermənistan tərəfindən hərbi təxribatlar müharibədən sonrakı dövrdə də davam etdirildi. Belə ki, Azərbaycan Ordusunun mövqeləri atəşə tutulmuş, ərazilərimizin minalanması davam etdirilmişdir. 2023-cü il sentyabrın 19-da törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlandı. 24 saatdan az müddətdə davam etmiş əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşıya qoyulmuş vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Bununla da Azərbaycan dövləti daha bir möhtəşəm qələbəyə imza atdı və bu milli dövlətçilik tariximizə növbəti şanlı səhifə olaraq daxil oldu. Həyata keçirilmiş uğurlu antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi, Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün ərazilərdə bərqərar oldu. Dövlətimizin və xalqımızın həyatında müstəsna əhəmiyyət kəsb edən bu möhtəşəm Qələbə sayəsində Dövlət Bayrağımız suverenliyimizin bərpa olunduğu bütün ərazilərdə əzəmətlə dalğalanır. 44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri nəticəsində parlaq Qələbənin əldə edilməsi Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, dövlət başçısı cənab İlham Əliyevin yenilməz siyasi iradəsi və qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində mümkün oldu.

Son olaraq "Konstitusiya və Suverenlik İli"nin elan olunmasının əhəmiyyətindən bəhs edərkən bildirməliyik ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi hüquqi islahatların daha sistemli həyata keçirilməsi və vətəndaşların hüquqi biliklərinin artırılması məqsədini daşıyır.

***Ucar Rayon***
***Statistika idarəsinin rəisi***
***Şakir Qasımov***

# Milli Kitabxanada "Əməkdar incəsənət xadimi Səyavuş Məmmədzadə - 90" adlı ənənəvi kitab sərgisi açılıb

***Milli Kitabxanada Əməkdar incəsənət xadimi, şair, nasir, tərcüməçi Səyavuş Məmmədzadənin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar "Əməkdar incəsənət xadimi Səyavuş Məmmədzadə - 90" adlı ənənəvi kitab sərgisi açılıb.***



Sərgidə müəllifin əsərləri, tərcümələri, redaktor olduğu və tərtib etdiyi, "Ön söz" yazdığı və həyatı haqqında və s. Azərbaycan və xarici dillərdə ədəbiyyatlar haqqında ədəbiyyatlar nümayiş olunur.

Səyavuş İmran oğlu Məmmədzadə 1935-ci il oktyabrın 2-də Bakıda müəllim ailəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb. Ədəbi fəaliyyətə tələbəlik illərindən başlayıb, ilk şeiri "Sınıq" 1956-cı ildə universitet qəzetində dərc olunub. Onun ədəbi fəaliyyətində poeziya, nəsr, publisistika, bədii tərcümə xüsusi yer tutub.

Azərbaycan poeziyasından rus dilinə ilk poetik tərcüməsi - Ağacavad Əlizadənin Səməd Vurğuna həsr etdiyi şeiri 1956-cı ildə çap olunub. Azərbaycan klassik və müasir ədəbiyyatından rus dilinə, eləcə də rus, bolqar, Ukrayna, Polşa ədəbiyyatından Azərbaycan dilinə etdiyi tərcümələri dövri mətbuatda çap olunub.

Səyavuş Məmmədzadə "Əməkdar mədəniyyət işçisi" (1984) və "Əməkdar incəsənət xadimi" (2003) fəxri adlarına layiq görülüb, həmçinin Prezident təqaüdçüsü olub. "Xəzər balladası" baletinin librettosuna görə Ümumittifaq müsabiqəsində 3-cü dərəcəli diplom qazanıb.

# Konstitusiya və suverenlik dövlətçiliyimizin dayağıdır

***Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması dövlətçilik tariximizin öyrənilməsi, qüdrətli Azərbaycanın dünya ölkələri sırasında özünə layiqli yer tutması, müstəqilliyimizin dönməz və əbədi olmasında bir çox prinsiplərin həm tarixi əhəmiyyətini, həm də mahiyyətini daha da ön plana çıxarmaq baxımından əvəzsiz rol oynayır.***




Azərbaycan 1990-cı illərin əvvəllərində, Sovet İttifaqının dağılmasından sonra öz müstəqilliyini bərpa etmək üçün mühüm addımlar atdı. Bununla yanaşı, Azərbaycan xalqının suverenlik arzusu və müstəqilliyə olan iradəsi, 1918-ci ildə qurulmuş və cəmi iki il davam edən Azərbaycan Xalq Cümhuriyyətindən irəli gələn ənənələrə söykənirdi. Cümhuriyyətin süqutundan sonra 70 ilə yaxın Sovet İttifaqının tərkibində olan Azərbaycan xalqı öz müstəqillik arzularını daim ürəyində yaşatmışdı.

1991-ci il oktyabrın 18-də qəbul edilən Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı ilə Azərbaycan rəsmən müstəqil dövlət statusunu bərpa etdi.

Dövlətimizin müstəqillik tarixinin ən mühüm hadisələrindən olan Əsas Qanun məhz Ulu Öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində hazırlanıb. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu vasitəsilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında ölkəmizdə müasir cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edilib. Ölkənin Əsas Qanununun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış 1996-cı il 1 noyabr tarixli Fərmana əsasən, hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilir.

Azərbaycanda hüquq sistemi, insan hüquqlarının təminatı və dövlət idarəetməsinin müasirləşdirilməsi sahəsində ciddi nailiyyətlər əldə edilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu nailiyyətlərin davam etdirilməsi və konstitusiya prinsiplərinin dərinləşdirilməsi üçün ardıcıl islahatlar həyata keçirilib. Ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində, 2009-cu il martın 18-də isə 25 maddəyə əlavə və dəyişikliklər edilib. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının gücləndirilməsi, həmçinin vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən irəli gəlir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavə və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən əlavə və dəyişikliklər müxtəlif sahələri əhatə etməklə, ali dövlət, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə yönəlib. Beləliklə, Əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

Qürurverici haldır ki, Azərbaycan dövlətinin 44 günlük Vətən müharibəsində inamlı Qələbəsi və 2023-cü ilin sentyabr ayının 19-20-də 24 saatdan da az bir müddətdə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu, Konstitusiyada təsbit edilmiş hüquqların işğaldan azad edilmiş bütün torpaqlarımız da daxil olmaqla Azərbaycanın bütün ərazilərində tam şəkildə bərpası üçün real zəmin yarandı. 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilib.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsini xalqımız xoş ovqat və böyük sevinclə qarşılayır. Çünki hər kəs bilir ki, müstəqilliklə yanaşı Konstitusiya və suverenlik hər bir dövlətin mövcudluğunun və davamlı inkişafının ilkin və əsas şərtlərindən biridir.

*Zərdab Rayon Statistika İdarəsinin rəisi*
*Qoşqar Niftəliyev*

# 2025-ci ilin yanvar-iyun ayları Yevlax rayonu üzrə "Kənd təsərrüfatı ilə bağlı ümumi məlumat"

***Yevlax rayonunun iqtisadiyyatında kənd təsərrüfatı prioritet sahədir. Rayonun iqtisadiyyatında taxılçılıq, pambıqçılıq, tərəvəzçilik, bostançılıq və heyvandarlıq aparıcı pol oynayır.***

Kənd təsərrüfatı müəssisələri, əhali və kəndli fermer təsərrüfatları əlverişli hava şəraitindən maksimum istifadə edərək yazlıq bitkilərin əkinini yüksək aqrotexniki qaydada və vaxtında başa çatdırmışlar. Belə ki, cari ilin birinci yarısında 30620,2 hektar sahədə yazlıq və payızlıq bitkiləri əkilmişdir. Keçən il yazlıq və payızlıq bitkilərin əkin sahəsi 33763,5 hektar olmuşdur. 2024-cü illə müqayisədə 2025-ci il 3143,3 hektar az yazlıq və payızlıq bitkiləri əkilmişdir.

Daha bir önəmli fakt isə ondan ibarətdir ki, kənd təsərrüfatı istehsalçılarına dövlət tərəfindən birdəfəlik olaraq maddi yardım göstərilmişdir. Fermerlər əkin subsidiyasının bir hissəsini (25%-ni) birbaşa nağdlaşdıra biləcək, yerdə qalan vəsait (75%) isə nağdalaşdırmadan, sadəcə gübrə, pestisid, toxum və ya ting alışı zamanı hesabdan-hesaba köçürəcək. Kənd təsərrüfatı istehsal vasitələrini satan təchizatçılar EKTİS-də qeydiyyatdan keçməlidir. Pambıq istehsalçılarına isə hər kq pambıq üçün 0,17 manat yardım edilir.

2025-ci ilin məhsulu üçün payızlıq və yazlıq bitkilərin əkin sahəsi 2024-cü ilə nisbətən 9,3 faiz az payızlıq və yazlıq bitkilər əkilmişdir.

2025-ci ilin məhsulu üçün 4425,7 hektar sahədə payızlıq buğda, 5926,4 hektar sahədə isə arpa səpini aparılmışdır. Əvvəlki illə müqayisədə 1132,9 hektar az buğda, 575,0 hektar az arpa səpini aparılmışdır.

2025-ci ildə 605,0 hektar qarğıdalı, 600,0 hektar günəbaxan, 11,0 hektar çəltik, 160,0 hektar kartof, 579,0 hektar tərəvəz, 240,0 hektar bostan, 16640,0 hektar çoxillik yem bitkiləri, 5,5 hektar noxud, 31,0 hektar darı, 3301,1 hektar pambıq, 45,5 hektar lobya, 290,0 hektar şəkər çuğunduru olmaqla yazlıq bitkilər əkilmişdir.

2024-cü ilə nisbətən 262,0 hektar qarğıdalı, 1,0 hektar kartof, 2,5 hektar tərəvəz, 10,0 hektar bostan, 10,0 hektar çoxillik yem bitkiləri, 1,0 hektar darı, 9,5 hektar lobya, 0,5 hektar noxud, 836,0 hektar pambıq çox əkilmiş, şəkər çuğunduru 51,9 hektar, 395,0 hektar günəbaxan, 111,0 hektar çəltik az olmuşdur.

01 iyul 2025-ci ilin məhsulu üçün əkin sahələrindən 16730,3 ton buğda, 18667,0 ton arpa, 1008,1 ton kartof, 3223,9 ton tərəvəz, 650,8 ton bostan, 6571,5 ton meyvə, 341,5 ton giləmeyvə, 242289,6 ton yonca otu, 2392,9 ton darı, 14,0 ton noxud, 167,0 ton lobya istehsal olunmuşdur ki, bu da 2024-cü ilin yanvar-iyun aylarına nisbətən 59,8 ton bostan, 33,4 ton kartof, 462,7 ton yonca otu, 3171,3 ton meyvə, 0,7 ton giləmeyvə, 247,5 ton tərəvəz, 2063,3 ton darı, 1,5 ton noxud, lobya isə 2,6 ton çox tədarük olunmuşdur. 4015,7 ton buğda, 1031,0 ton arpa az tədarük olunmuşdur.




Əkin sahələrindən bitkiçilik məhsullarının toplanması davam edir. 2025-ci ildə barama tədarükü 3870,5 kq olmuşdur ki, bu da 2024-cü ilə nisbətən 31,3 faiz və ya 1763,85 kq az olmuşdur. 2024-cü ildə barama tədarükü 5634,35 kq omuşdur.

Cari ilin iyul ayının 1-i vəziyyətinə ət istehsalı (diri çəkidə) 4851,0 ton, süd istehsalı 21857,0 ton, yumurta istehsalı 10235 min ədəd, yun isə 353,0 ton olmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 115,0 ton, süd istehsalı 975,0 ton, yumurta istehsalı 42 min ədəd, yun isə 1,0 ton artmışdır. 01.07.2025-ci il vəziyyətinə 69675 baş iri buynuzlu mal-qara, o cümlədən 32130 baş inək və camışlar, 170686 baş qoyun və keçi, 45769,8 baş quş olmuşdur.

*Hazırladı, Yevlax Şəhər Statistika İdarəsinin rəisi*
*Saleh Cəfərov*




# VƏTƏN FƏDAİLƏRİ - Zamanla Yarışan Tariximiz

***Zəfərimizin beşinci ildönümünə doğru irəlilədiyimiz, qəhrəman şəhidlərimizin beşinci Anım Gününü keçirdiyimiz bu günlərdə müəllifi Manya Səxavətqızı olan "VƏTƏN FƏDAİLƏRİ" layihəsinin V cildinin işıq üzü görməsi təkcə bir kitabın nəşri deyil, bu həm də tarixin yaddaşa həkk olunması, şəhid ömürlərinin sözlə ucaldılmasıdır.***

Bu dəfə təqdim olunan "VƏTƏN FƏDAİLƏRİ: Şabran-Siyəzən-Xızı şəhidləri" kitabı bu üç bölgədən olan igidlərimizin şərəfli döyüş və həyat yolunu əbədiləşdirir. Layihənin ərsəyə gəlməsində Shahin Məmmədovun mənəvi, Bəhruz Məmmədovun isə maddi dəstəyi önəmli rol oynayıb. Hər iki insanın bu yolda göstərdiyi dəstək, sadəcə bir təşəbbüs deyil, bu həm də şəhidlərin ruhuna ehtiramın göstəricisidir.

"VƏTƏN FƏDAİLƏRİ" layihəsində ərsəyə gələn kitablar sadəcə bioqrafiyalar toplusu deyil, hər sətiri bir məzar daşı qədər əziz, hər səhifəsi bir ana ahı qədər ağırdır. Bu kitabda şəhidlərin qəlbinin döyüntüsü var, bir atanın vüqarı, bir ananın laylası, bir bacının qürur göz yaşları, bir körpənin atasız böyüyən arzuları gizlidir.

Lakin zaman dayanmır. Hər ötən gün bir şəhid valideyni bu vəfasız dünyadan köçür. Onlarla bərabər şəhidin səsi, sevimli xatirələri, uşaqlıq illəri, danışılmamış hekayələri də əbədiyyətə qarışır.

Bəlkə də bu səbəbdən Manya xanım tələsirg Sözün həqiqi mənasında tələsir. Çünki bilir: əgər bu dastanlar indi yazılmasa, sabah gec ola bilər. Hər yazdığı hekayə ilə bir yaddaşın itməsinə mane olur.

"VƏTƏN FƏDAİLƏRİ" - bu xalqın kollektiv yaddaşıdır. Bu layihə gələcək nəsillərə ünvanlanmış bir əmanətdir. Tarixin yaddaşına yazılan şəhid adları kitab səhifələrində əbədiləşdikcə, şəhidlərimiz də unudulmayacaq. Adları məktəblərdə, küçələrdə olsa da, əslində hər birimizin qəlbində yaşayacaq.

Əgər bir gün bütün şəhid valideynləri bu dünyadan köçsə belə "VƏTƏN FƏDAİLƏRİ" qalacaq.

VƏTƏN FƏDAİLƏRİ şəhidlərimizi yaşadacaq, tanımayanlara onları tanıdacaq, unudanlara xatırladacaq, susanlara danışacaq.

*Şəhid mayor Vüsal Vəliyevin qardaşı, Filologiya üzrə fəlsəfə doktoru*
*Elyar İslamoğlu*

37_27 IYUl-QARA.qxd 10/2/2025 10:54 PM Page 15



# "Aİ Ukraynaya görə müharibəyə başlamaq istəyir" - Orban



***Aİ liderləri Ukraynaya görə müharibəyə başlamağa can atırlar. Nəticədə beynəlxalq səhnədə qarşıdan gələn aylar gərgin keçəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Macarıstanın Baş naziri Viktor Orban "X" hesabında yazıb.

Onun sözlərinə görə, Aİ-yə üzv ölkələr Aİ-nin vəsaitlərini Ukraynaya köçürmək və silah tədarükünü maliyyələşdirmək istəyirlər. Avropalı siyasətçilər də hüquqi hiylələrdən istifadə edərək Ukraynanın Aİ-yə daxil olmasını sürətləndirməyə çalışırlar.

"Vəziyyət ciddidir... ", - o, ifadə edib.

***Gülayə Mecid***

# Makron İlham Əliyev və Paşinyanı təbrik etdi



***Ermənistanın baş naziri Nikol Paşinyan Kopenhagendə Fransa prezidenti Emmanuel Makronla görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Baş nazir sosial şəbəkədəki səhifəsində yazıb.

Fransa lideri "Avropa Siyasi Birliyi"nin sammiti çərçivəsində panel müzakirəsi zamanı Azərbaycan Prezidenti İlham Əliyevi və Ermənistan Baş naziri Nikol Paşinyanı sülh prosesində irəliləyişlərə görə təbrik edib.

"Ermənistan və Azərbaycan arasında sülh bəyannaməsinin imzalanması (inisiallaşdırılması) böyük nailiyyətdir. Mən hər iki ölkənin liderlərini təbrik edirəm. Bizim diqqətimiz Cənubi Qafqazda və Qərbi Balkanlarda baş verən hadisələrə yönəlib", - Makron bildirib.

***Ağarza Elçinoğlu***

# Rusiyada Başər Əsədi zəhərləyiblər



***Suriyanın keçmiş Prezidenti Başər Əsədi zəhərləyiblər.***

"Unikal" Rusiya KİV-ə istinadən xəbər verir ki, eks-prezident zəhərlənmə diaqnozu ilə Moskvada xəstəxanaya yerləşdirilib.

Məlumata görə, siyasətçi reanimasiyadan sonra xəstəxanadan buraxılıb. Həkimlər onun vəziyyətini stabil qiymətləndiriblər. Məhdud sayda insanın xəstəxanada Əsədi ziyarət etməsinə icazə verilib. Onların arasında keçmiş prezidentin qardaşı Maher Əsəd və Prezident Administrasiyasının keçmiş baş katibi Mənsur Əzzam da olub. Bundan əvvəl Suriyanın yeni lideri Əhməd Əl Şaraa bəyan etmişdi ki, Moskva hakimiyyət dəyişikliyindən sonra ölkədən qaçan keçmiş prezident Başər Əsədin təhvil verilməsi ilə bağlı Dəməşqin tələbini rədd edib.

Suriya İnsan Haqları Müşahidə Qrupundan bildirilir ki, Əsədi zəhərləməyə cəhd edən şəxslər Rusiya hökumətinə güzəştə getmək niyyətində olublar. "Onlar ümid edirdilər ki, siyasətçinin zəhərlənməsinə görə Moskva günahlandırılacaq", - məlumatda qeyd olunub.

***Gülayə Mecid***

# İrəvanda etiraz aksiyası - Hərbçilər medallarını geri qaytardı

***Ermənistanda hərbçilər hökumət binasının qarşısında etiraz aksiyası keçirirlər.***

"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, onlar 44 günlük müharibəyə görə aldıqları medalları geri qaytarıblar.

Etirazçılar bildirib ki, medalların əsasını təşkil edən hər bir dəyər, ideya, fədakarlıq ləğv edilirsə, o zaman bu medallar da yararsızdır.

***Ağarza Elçinoğlu***

# Ermənistan parlamenti Azərbaycanla bağlı bəyanat qəbul etdi

***Ermənistan parlamenti "Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olması haqqında" bəyanatın layihəsini qəbul edib.***



"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, layihə 64 lehinə, 2 bitərəf və 0 əleyhinə səslə qəbul olunub. Müxalifət bu müzakirəyə və səsverməyə qatılmayıb.

Qeyd olunub ki, oktyabrın 2-də parlamentin növbədənkənar sessiyası çağırılıb, iclasın gündəliyinə "Ermənistan və Azərbaycan arasında sülhün bərqərar edilməsi haqqında" Milli parlamentin bəyanatı layihəsi daxil edilib. Bunu parlament tribunasından "Mülki müqavilə" fraksiyasının rəhbəri Hayk Konjoryan təqdim edib.

O, əvvəlcə məlumat verib ki, "Mülki Müqavilə" fraksiyası bəyanat qəbul etməklə Ermənistan və Azərbaycan arasında yaradılmış sülhü dəstəkləməli və bütün maraqlı tərəfləri yaradılmış sülhü möhkəmləndirməyə və inkişaf etdirməyə çağırmalıdır. O, daha sonra iki ölkə arasında sülhün bərqərar olması ilə bağlı bəyanatı səsləndirib:

"Ermənistan Respublikasının Milli Assambleyası ölkənin suverenliyini və ərazi bütövlüyünü müdafiə edərək, bir-birinin ərazi bütövlüyünün, suverenliyinin, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının tanınması əsasında bütün qonşularla dinc yanaşı yaşamanın vacibliyini tanıyaraq, regionun siyasi müstəqilliyini və siyasi tərəqqisini vurğulayır. Ermənistan Respublikasının inkişafı və davamlılığı üçün sülhün bərqərar olmasının vacibliyini, keçmiş münaqişəyə son qoyulması və xalqlar arasında mehriban qonşuluq münasibətlərinin qurulması zərurətinin dərkinə əsaslanaraq, ABŞ Prezidenti Donald Trampın, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyanın 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş üçtərəfli görüşün nəticəsi olaraq liderlərin birgə bəyannaməsini dəstəklədiyini bildirir.

2025-ci il avqustun 8-də ABŞ-nin paytaxtı Vaşinqtonda Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında Sülhün və Dövlətlərarası Münasibətlərin qurulması haqqında Müqavilənin imzalanmasına yönəlmiş paraflamanı və səyləri alqışlayırıq.

Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında kommunikasiyaların açılmasının dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət əsasında, regionda və onun qonşuluğunda sülh, sabitlik və rifahı təşviq etmək üçün baş tutacağına dair əldə edilmiş razılaşmanın əhəmiyyətini vurğulayırıq. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Ermənistan Respublikasının ərazisindən keçməklə maneəsiz əlaqəni, beynəlxalq və ölkədaxili rabitə baxımından Ermənistan Respublikası üçün qarşılıqlı fayda gətirəcək.

Ermənistan Respublikasının ABŞ-la işləməsi və Ermənistan Respublikası ərazisində "Beynəlxalq Sülh və Rifah üçün Tramp Yolu" (TRIPP) kommunikasiya proqramının həyata keçirilməsi çərçivəsini müəyyən etmək üçün üçüncü tərəflərlə qarşılıqlı razılıq əldə etməsi vacib hesab edilir.

BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq, keçmişin münaqişəsi ilə əvvəlcədən müəyyən edilməmiş parlaq gələcəyə gedən yolun müəyyənləşdirilməsi üçün 8 avqust 2025-ci il tarixli bəyannamə ilə Ermənistan və Azərbaycan arasında başlanmış proses təşviq edilir.

Bir daha təsdiq edirik ki, misilsiz insan iztirablarına səbəb olan münaqişədən sonra Ermənistan və Azərbaycan xalqları üçün beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək üçün gücdən istifadənin yolverilməzliyi prinsipləri əsasında mehriban qonşuluq münasibətləri qurmaq üçün şərait yaradılıb.

ABŞ Prezidenti Donald Trampa Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olunmasında danılmaz töhfəsinə görə minnətdarlığını bildiririk.

Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olmasının iqtisadi tərəqqi və inkişaf üçün yeni imkanlar açdığını, sülhün institusional qurulmasının Ermənistan Respublikasının həyati maraqlarından qaynaqlandığını və bərqərar olmuş sülhün daha da möhkəmləndirilməsi üçün səylərin göstərilməli olduğunu vurğulayırıq".

Sonda isə partiya Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ictimai, siyasi, ekspert, elmi və mədəni dairələrini Cənubi Qafqazın rifahı naminə bərqərar olmuş sülhün davamlılığını və etibarlılığını təmin etmək məqsədilə münaqişəni simvolizə edən və onu yenidən formalaşdırmaq və ya qızışdırmaq məqsədi daşıyan bəyanatlardan və hərəkətlərdən çəkinməyə çağırıb.

***Ağarza Elçinoğlu***

# "Sözümü bəyənməyən zalı tərk etsin!" - Trampdan məmurlara

***ABŞ prezidenti Donald Tramp Amerika ordusunun yüzlərlə yüksək rütbəli komandirləri qarşısında etdiyi çıxışı ilə gündəmə gəlib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Virciniyadakı hərbi bazada 800-ə yaxın yüksək rütbəli zabiti toplayan Tramp bir saatlıq nitqlə bir çox mövzuda, o cümlədən ordunun fəaliyyəti və qlobal məsələlərlə



bağlı mesajlar verib.

Belə ki, Tramp tribunada "Dediklərim xoşunuza gəlmirsə, otağı tərk edə bilərsiniz, amma o zaman rütbəniz də, gələcəyiniz də itiriləcək...", - deyərək çıxışına başlayıb.

Çıxışında daxili təhlükəsizlik məsələlərinə diqqət çəkən Tramp, ölkənin cinayət və qeyri-qanuni immiqrasiyadan qaynaqlanan "daxili müharibə" ilə üz-üzə olduğunu müdafiə edib.

***Gülayə Mecid***

# Azərbaycan III MDB Oyunlarında qızıl medal qazandı

***Azərbaycan III MDB Oyunlarında daha bir qızıl medal qazanıb.***




"Unikal" xəbər verir ki, üzgüçü Süleyman İsmayılzadə birinci olub.

O, 400 metr məsafəyə sərbəst üsulla üzmədə bütün rəqiblərini qabaqlayıb.

Rusiya təmsilçilərindən Aleksandr Filipets gümüş, Boqdan Toropkin bürünc mükafata sahib çıxıb.

# Finala ən ucuz biletin qiymәti 2030 dollardır

***DÇ-2026-nın final matçı üçün nəzərdə tutulan bilet qiymətlərini açıqlanıb.***

QOL.az xəbər verir ki, bu brədə "The Athletic" məlumat yayıb.

Finalın ən bahalı biletlərinin qiyməti 6730 dollar təşkil edəcək. Ən ucuz biletlərin isə qiyməti 2030 dollardır. Bildirilib ki, qrup mərhələsinin matçlarına bilet qiymətləri 60-620 dollar arasında dəyişir.

Azarkeşlər qrup mərhələsinin oyunlarında 4 kateqoriya



üzrə bilet ala bilərlər:

1-ci kateqoriya: 410 dollardan 620 dollara qədər

2-ci kateqoriya: 310 dollardan 465 dollara qədər;

3-cü kateqoriya: 140 dollardan 215 dollara qədər;

4-cü kateqoriya: 60 dollardan 105 dollara qədər.

Qeyd edək ki, DÇ-2026-nın final mərhələsi gələn il iyunun 11-dən iyulun 19-dək ABŞ, Kanada və Meksikada təşkil olunacaq. Turnirdə ilk dəfə olaraq 48 milli komanda mübarizə aparacaq. Mundialın final oyunu ABŞ-ın Nyu-Cersi ştatındakı "Metlife Stadium"da keçiriləcək.

# "İnter" ciddi itki ilə üzləşib

***Markus Türam zədə səbəbindən təxminən bir ay meydana çıxmayacaq. "İnter"in hücumçusu Çempionlar Liqasının "Slaviya" ilə oyununda (3:0) ikinci hissədə məcburi olaraq əvəzlənib.***

"Unikal" xəbər verir ki, "La Gazzetta dello Sport"un məlumatına görə, Tyuramın zədəsi əvvəl düşünüldüyündən daha ciddi olub. Bu gün keçirilən müayinələr fransalı futbolçuda budun iki başlı əzələsinin zədəsini aşkar edib. O, 3-4 həftəlik oyunları buraxacaq.

Böyük ehtimalla, 28 yaşlı hücumçu A Seriyasında "Kremoneze" və "Roma"ya, Çempionlar Liqasında isə "Union"a qarşı matçlarda iştirak etməyəcək, həmçinin Fransa millisinin dəvətini də qaçıracaq.



# Azərbaycanın UEFA reytinqində xal ehtiyatı artdı

***"Qarabağ"ın Çempionlar Liqasının Liqa mərhələsinin 2-ci turunda "Kopenhagen"i məğlub etməsi Azərbaycanın UEFA reytinqindəki xallarını artırıb.***

"Unikal" xəbər verir ki, Ağdam təmsilçisinin Bakıda Danimarka klubuna 2:0 hesabı ilə qalib gəlməsi ölkəmizin reytin-




qə daha 0.500 xal yazdırıb.

Xallarını 22.000-ə çatdıran Azərbaycan əvvəlki kimi 25-ci sırada yer alıb.

Azərbaycandan bir pillə öndə yer alan Serbiyanın 22.375 xalı var. 21.375 xalı olan Slovakiya isə 26-cı pilldə qərarlaşıb. Reytinqə 97.117 xalla İngiltərə başçılıq edir.

# Debüt matçında zədələndi, 1 il oynamayacaq

***"Liverpul"un müdafiəçisi Covanni Leoni dizindən aldığı zədəyə görə əməliyyat olunub.***

QOL.az xəbər verir ki, 18 yaşlı futbolçu bu barədə sosial şəbəkə hesabında paylaşım edib.

"Liverpl"un bu yay "Parma"dan aldığı futbolçu ötən ay İngiltərə Liqa kubokunda "Southampton"la görüşdə zədələnmişdi. Debüt matçında onun diz bağları qopub. Komandanın baş məşqçisi Arne Slot isə onun 1 il yaşıl meydanlardan uzaqda qalacağını açıqlayıb.

Qeyd edək ki, "Liverpul" UEFA Çempionlar Liqasında 2026-cı il yanvarın 28-də "Qarabağ"la qarşılaşacaq.






# III MDB Oyunları: Azərbaycanın badminton millisi 3-cü yeri tutdu

***Azərbaycanın ev sahibliyi etdiyi III MDB Oyunlarında badminton üzrə qarışıq komanda yarışının qalibi müəyyənləşib.***

"Unikal" xəbər verir ki, final matçında Özbəkistan və Rusiya yığmaları qarşılaşıblar. Görüş Rusiyanın 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, ötən gün yarımfinalda məğlub olan Azərbaycan millisi isə bürünc mükafata sahib çıxıb.

Badminton yarışlarına oktyabrın 5-də yekun vurulacaq.

# Xankəndidə III MDB Oyunlarına start verildi

***Azərbaycanın ev sahibliyi etdiyi III MDB oyunları çərçivəsində oktyabrın 2-də kamandan oxatma yarışları başlayıb.***



Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən xəbərə görə, yarışlar Xankəndi şəhər stadionunda təşkil olunub. turnirdə 7 ölkədən 40 idmançı iştirak edir.

Yarışlarda Azərbaycan 3 oğlan və 3 qız olmaqla ümumilikdə 6 idmançı ilə təmsil olunur. Yarışı şəhərin sakinləri, Qarabağ Universitetinin tələbələri, media nümayəndələri izləyir.

# PSJ "Barselona"nı məğlub etdi



***Çempionlar Liqasında Liqa mərhələsinin 2-ci turuna yekun vurulub.***

"Unikal" xəbər verir ki, 2-ci oyun günündə 9 matç keçirilib.

Azərbaycan təmsilçisi "Qarabağ" Tofiq Bəhramov adına Respublika Stadionunda Danimarka "Kopenhagen"inini qəbul edib. Ağdam klubu görüşdə 2:0 hesablı qələbə qazanıb.

Günün ən maraqla gözlənilən qarşılaşması isə İspaniyada olub. "Olimpik Lyuis Kompanis" stadionunda yarışın favoriti adına əsas namizədlərdən olan "Barselona" ÇL-in son qalibi PSJ-ni qəbul edib. Bu matçda PSJ 2:1 hesabı ilə qalib gəlib.

Çempionlar Liqası, Liqa mərhələsi, 2-ci tur

**1 oktyabr**

**20:45. "Yunion" (Belçika) - "Nyukasl" (İngiltərə) - 0:4**
**Qollar: Voltemeid, 17, Cordon, 43-pen; 64-pen: Barnes, 80**
**20:45. "Qarabağ" (Azərbaycan) - "Kopenhagen" (Danimarka) - 2:0**
**Qollar: Zubir, 28, Addai, 83**
**23:00. "Arsenal" (İngiltərə) - "Olimpiakos" (Yunanıstan) - 2:0**
**Qollar: Martinelli, 12, Saka, 90+2**
**23:00. "Bayer" (Almaniya) - PSV (Niderland) - 1:1**
**Qollar: Kofani, 65 - Saybari, 72**
**23:00. "Vilyarreal" (İspaniya) - "Yuventus" (İtaliya) - 2:2**
**Qollar: Mikautadze, 18, Veyqa, 90 - Qatti, 49, Konseyçao, 56**
**23:00. "Napoli" (İtaliya) - "Sportinq" (Portuqaliya) - 2:1**
**Qollar: Hoylund, 36, 79 - Saurez, 62-pen.**
**23:00. "Monako" (Fransa) - "Mançester Siti" (İngiltərə) - 2:2**
**Qollar: Teze, 18, Dayer, 90-pen. - Haaland, 15, 44**
**23:00. "Borussiya" (Dortmund, Almaniya) - "Atletik" (İspaniya) - 4:1**
**Qollar: Svensson, 28, Çukvuemeka, 50, Girassi, 82, Brandt, 90+1 - Quruzeta, 61**
**23:00. "Barselona" (İspaniya) - PSJ (Fransa) - 1:2**
**Qollar: Torres, 19 - Mayulu, 38, Ramos, 90**